RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 10 (8326) ŞƏNBƏ, 18 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycan sabitlik məkanı kimi inkişaf edir

Bu gün planetin siyasi-iqtisadi mənzərəsi təzadlarla doludur. Təsadüfi deyil ki, tarixə çevrilən 2019-cu il dünyanın hər bir ölkəsində müxtəlif şəkildə yadda qaldı. Təəssüf ki, heç bir müharibə və münaqişə ocağında ötən il sülhə nail olunmadı. Ona görə bəzi ölkələr müharibələrin fəsadından, bəziləri isə siyasi dartışmalardan əziyyət çəkdi. Bəziləri də iqtisadi-sosial tənəzzül burulğanında ili başa vurdular.

## 2019-cu il ölkəmiz üçün uğurlu il olmuşdur

Ötən ili xoş ovqatlarla başa vuran dövlətlər də oldu. İl ərzində ümumi daxili məhsul istehsalını artıran, mühüm makroiqtisadi göstəricilər əldə edən, vətəndaşının rifahını yüksəldən dövlətlər seçildilər. Belə dövlətlər arasında Azərbaycanın öz yeri var. Çünki 2019-cu il Azərbaycanın inkişafında növbəti uğurlu mərhələ kimi tarixə düşdü. Belə ki, mürəkkəb qlobal iqtisadi proseslər fonunda Azərbaycan iqtisadiyyatında inkişaf və makroiqtisadi sabitlik davam etdi. Qeyri-neft sektorunun iqtisadi artımın əsas mənbələrindən birinə çevrilməsi istiqamətində keçirilən islahatlar yeni nəticələr verdi, investisiya fəallığı yüksək səviyyədə qaldı. Bu baxımdan əvvəlki illərdə olduğu kimi, ötən il respublikamızda sosial-iqtisadi inkişafın davamlı olması, əhalinin rifah halının daha da yaxşılaşdırılması, ölkənin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə yüksəldilməsi, milli və dövlətçilik maraqlarının təmin olunması baxımından mühüm mərhələ oldu. 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev ötən ilin ölkəmiz üçün uğurlu olduğunu, siyasi, iqtisadi, sosial sahələrdə yüksək nailiyyətlər əldə edildiyini bildirdi: "Deyə bilərəm ki, bütövlükdə 2019-cu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, ölkəmizin dayanıqlı inkişafı təmin olundu. Beləliklə, həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilmişdir. Azərbaycan sabitlik şəraitində yaşamışdır. Sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir".

Bəli, müharibələrin, münaqişələrin, böhranların səngimədiyi müasir dünyamızda öz yolu ilə inamla addımlamaq, inkişaf etmək və uğur qazanmaq hər ölkəyə nəsib olmur. Hər ötən gün geosiyasi mübarizənin, ölkələrin bir-birinin işinə kobudcasına qarışmasının və hərbi ritorikanın yüksəlməsi ilə yadda qalır. Belə bir şəraitdə Azərbaycanın inkişafı dövlətimizin və xalqımızın mühüm nailiyyətidir. Artıq müstəqilliyinin 29-cu ilini yaşayan respublikamız sürətlə inkişaf edir, qüdrətlənir və beynəlxalq aləmin nüfuzlu üzvü kimi öz mövqeyi və siyasəti ilə fərqlənir. Bu uğurun əsas şərti isə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, sabitlikdir.

*Ardı 2-ci səh.*

# C.Ə.Səlimovanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Cənnət Əlibəy qızı Səlimova "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 yanvar 2020-ci il*

# Nazirlər Kabinetində əmək münasibətlərinin tənzimlənməsinə həsr olunmuş müşavirə keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də ötən ilin yekunlarına həsr olunmuş müşavirədə hökumətə müvafiq tapşırıqlar verib. Bunununla əlaqədar yanvarın 17-də Nazirlər Kabinetində müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, həmin tapşırıqların icrası ilə bağlı ilk müşavirə qeyri-rəsmi məşğulluğun leqallaşdırılması məsələsinə həsr olunub. Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov bildirib ki, Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə hökumət qarşısında 25-dən çox tapşırıq qoyub. Nazirlər Kabineti bu tapşırıqları sistemləşdirib və həyata keçirilməsi üçün Tədbirlər Planı hazırlayıb, bununla bağlı müvafiq sərəncam imzalanıb.

Baş Nazir Əli Əsədov deyib ki, Prezident İlham Əliyev müşavirədə qeyri-rəsmi məşğulluğun qarşısının alınmasını, şəffaflığın artırılmasını xüsusi vurğulayıb və bugünkü toplantı Prezidentin tapşırıqlarının icrası istiqamətində keçirilən ilk müşavirədir.

Əli Əsədov qeyd edib ki, son 2 ildə Dövlət Sosial Müdafiə Fonduna ödəmələrin 37 faizdən çox artması aparılan islahatların real göstəricisidir. Görülən işlərin nəticəsində vergi bazası da genişlənməkdədir. Amma, Azərbaycan Prezidentinin siyasi iradəsi belədir ki, bu iş daha da güclənməlidir.

Tədbirlər Planında nəzərdə tutulmuş məsələlərin həlli ilə bağlı bugünədək görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verən Baş Nazirin müavini, komissiyanın sədri Əli Əhmədov deyib ki, son 15 ildə ölkədə 2 milyondan çox yeni iş yeri yaradılıb, işsizliyin səviyyəsi 5 faizə enib. Tədbirlər planı 5 bölmədən 36 maddədən ibarətdir. İndiyədək həmin maddələrin 18-i tam, 7-si qismən icra edilib, 11 maddə üzrə işlər mütəmadi icra olunacaq. Ümumilikdə görülmüş işlər müsbətdir. 2017-ci ilin ikinci yarısından 2019-cu ilin sonunadək ümumilikdə 300 minədək əmək müqaviləsinin artımı müşahidə olunub. İlbəil dinamikanın artması da yaxşı göstəricidir. Təkcə 2019-cu ildə bu göstərici 153 min olub.

*Ardı 2-ci səh.*

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



**Yanvarın 17-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2020-ci il yanvarın 9-da keçirilmiş iclasının protokolu təsdiq olunub.

Sonra kütləvi informasiya vasitələrində seçkiqabağı təşviqatın aparılması zamanı qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarət etmək məqsədilə MSK nəzdində fəaliyyət göstərən Mətbuat qrupunun tərkibində dəyişiklik edilib.

İclasda 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar MSK-ya daxil olan müraciətlərə də baxılıb. Seçki prosesinin iştirakçısı olan maraqlı subyektlərin iştirakı ilə müraciətlər geniş müzakirə edildikdən sonra qərarlar qəbul olunub. Müraciətlərin müzakirəsi zamanı namizədin qeydə alınmasından imtina edilməsinə dair bir dairə seçki komissiyasının qərarı ləğv olunaraq, eləcə də digər dairə seçki komissiyasının hərəkətsizliyi səbəbindən hüququ pozulan vətəndaşın müraciəti təmin edilərək, namizədlikləri öz təşəbbüsləri ilə irəli sürülən iki nəfərin Milli Məclisə seçkilərdə namizədliyi MSK tərəfindən qeydə alınıb.

Milli Məclisə seçkilərin izlənməsinə qatılan beynəlxalq müşahidəçilərin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

# Həyata keçirilən islahatlar daha çox sosial sahəni əhatə edir

### Prezident İlham Əliyevin dəfələrlə səsləndirdiyi "Bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır" bəyanatı keçən il də öz təsdiqini tapdı

Xəbər verildiyi kimi, yanvarın 13-də Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilmişdir. Dövlət başçısı müşavirədə ötən il qazanılan uğurlar və qarşıda duran vəzifələr barədə ətraflı danışmış, eyni zamanda yol verilən nöqsanları tənqid etmiş və onların aradan qaldırılması üçün aidiyyəti dövlət qurumlarına tapşırıqlar vermişdir.

Ölkə rəhbəri çıxışlarında dəfələrlə vurğulamışdır ki, dövlətin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi, sosial müdafiəsinin təminatı durur. Bu müşavirədə də sözügedən sahədə əldə edilən uğurlar xüsusi vurğulandı. Qeyd edildi ki, ötən il sosial sahədə həyata keçirilən uğurlu islahatlar, qəbul edilən qərarlar tarixi əhəmiyyət daşıyır.

*Ardı 7-ci səh.*

### "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti TAP-ın da çəkilişi tamamlanmaq üzrədir




# TANAP-ın Avropa sərhədinə çatması ötən ilin mühüm hadisələrindən olmuşdur

Azərbaycanın təşəbbüsü və liderliyi ilə reallaşan neft-qaz, ixrac, nəqliyyat və digər infrastruktur layihələri hazırda dünyada həyata keçirilən ən iri layihələrdəndir.

1990-cı illərin ikinci yarısından üzübəri ölkəmiz Bakı-Novorossiysk (Şimal İxrac Boru Kəməri), Bakı-Supsa (Qərb İxrac Boru Kəməri), Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərini çəkib. 13 ildən çoxdur "Şahdəniz" qazını Türkiyəyə çatdıran Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri məhz BTC-nin təcrübəsinə əsaslanıb. BTƏ isə öz növbəsində daha böyük layihəyə - "Cənub qaz dəhlizi"nə yol açıb.

Azərbaycan dövləti neft-qaz layihələrindən daxil olan gəlirlərdən səmərəli istifadə edərək genişmiqyaslı infrastruktur layihələri həyata keçirib. Bunların arasında dünya səviyyəli elə layihələr var ki, onlar Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirib.

Bu il yanvarın 13-də Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunları ilə bağlı keçirilmiş müşavirədə bunların tarixi layihələr olduğu vurğulanıb.

*Ardı 7-ci səh.*

# Dənizdə haqq savaşı

### Kapitan Rövşən Dəmirov: "Yarım saat dayanmadan gəmini güllələdilər"

Azərbaycan tarixinin səhifələrinə qara hərflərlə yazılmış 20 Yanvar faciəsindən otuz il keçməsinə baxmayaraq, ağrı-acısı hələ də təzədi. Bəlkə də otuz il zaman baxımından uzun görünür, əslində isə bu müddət o qədər də uzaq keçmiş sayılmaz. Sanki həmin gecə baş verən qətliamın, xalqımızın yaşadığı faciənin üzərindən heç otuz gün də keçməyib. Çünki o qanlı gecənin şahidləri bu gün də həmin hadisələri xatırlayanda eyni hissləri, duyğuları, ağrıları yaşayırlar...

Bəli, o gecə vətən övladları birlikdə olub zülmə dirənc göstərərək, əliyalın ölümün ağuşuna atıldılar. Hər kəs bacardığı qədər vətəndaşlıq borcunu yerinə yetirdi, var qüvvəsi ilə mübarizəyə qalxdı. Və bu mübarizə tək quruda yox, dənizdə də getdi. O günlər torpağın üzərində baş verənlər haqda çox danışılıb, yazılıb, nümayiş olunub. Amma Xəzərin sularında qalxan "fırtınadan", kapitanların Vətən uğrunda apardıqları dəniz savaşından bəlkə də çox adam məlumatlı deyil.

*Ardı 4-cü səh.*

# Azərbaycan sabitlik məkanı kimi inkişaf edir

*Əvvəli 1-ci səh.*

## Sabitlik dövlətimizin, xalqımızın ən mühüm nailiyyətlərindən biridir

Əldə etdiyimiz uğurların müxtəlif amillərlə yanaşı, xüsusən sabitliyin təmin edilməsi ilə bağlı olması özünü tarixi təcrübədə təsdiq edən mühüm faktordur. Bu gün bir sıra ölkələrin özünün ən yüksək inkişaf dövrünü yaşaması məhz sabitliyin və qanunçuluğun sayəsində mümkün olub. Lakin bizi bu günlərə gətirən yollar heç də həmişə hamar olmayıb. Ən azından müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qüvvələrin başıpozuq fəaliyyətlərinin nəticəsində Azərbaycanda cinayətkarlığın və təhlükəsizliyə təhdidlərin baş alıb getməsi çoxunun yaddaşında dərin iz buraxıb. Yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik bərqərar edildi, cinayətkarlığa, ictimai-siyasi inkişaf üçün təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı uğurlu və təxirəsalınmaz tədbirlər həyata keçirildi.

Son 16 ildə ölkəyə rəhbərlik edən Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin nəticəsi olaraq ölkəmizdə sabitlik və əmin-amanlıq daha da möhkəmlənib. Sabitlik adası kimi tanınan Azərbaycan beynəlxalq birliyin ən firavan subyektlərindən birinə çevrilib.

Bu gün də regionumuzda və ətraf bölgələrdə xoşagəlməz hadisələr baş verməkdədir. Dünyanın bir sıra nöqtələrində, eləcə də Yaxın Şərqdə gedən proseslər sabitliyin nə qədər böyük dəyər olduğunu təsdiqləyir. Bəzi güclər öz maraqları naminə onların daxilində vəziyyəti gərginləşdirir, vətəndaş müharibəsinə, qanlı aksiyalara səbəb olurlar. Yaxın Şərqdə qarşıdurmalar səngimək bilmir, İraq və Suriyada terrorçular hələ də meydan sulayır. Bu ölkələrin hər biri dini və etnik zəmində təhdidlərlə qarşılaşıb. Onların xalqları, günahsız insanlar çox ağır məhrumiyyətlərlə üzüzə qalaraq humanitar fəlakətə düçar olub.

Bütün bunlar bir daha bu reallığı təsdiqləyir ki, hər bir cəmiyyətin qarşısında duran ən mühüm vəzifələrdən biri məhz sabitliyin təmin edilməsidir.

Təsadüfi deyil ki, müşavirədəki çıxışında İlham Əliyev ilk olaraq bu məsələyə toxundu, Azərbaycanın sabitlik məkanı kimi inkişaf etdiyini dedi: "Biz il ərzində müxtəlif yerlərdə gərginliyin artmasını görürdük. Qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması - bütün bunlar dünyanın demək olar ki, bütün yerlərində müşahidə olunurdu. Avropada, Asiyada, Latın Amerikasında, postsovet məkanında, bizim bölgəmizdə, Yaxın Şərqdə, dünyada gərginlik artır. Azərbaycan isə sabitlik məkanı kimi inkişaf edir".

Bir vacib məsələni də unutmalı deyilik ki, Azərbaycanda bərqərar olunmuş ictimai-siyasi sabitlik ölkəmizi sevməyən bir sıra xarici dairələrin və onların öz içimizdəki əlaltılarının maraqlarını təmin etmir. Ona görə antiazərbaycançı adlandırdığımız bu şəbəkənin ayrı-ayrı elementləri Azərbaycanda sabitliyin pozulması üçün daim müxtəlif ssenarilər hazırlayıb və onu ayrı-ayrı vasitələrlə həyata keçirməyə cəhd edirlər. Ancaq onların məkrləri güclü Azərbaycan dövlətçiliyinin, xalq-hakimiyyət vəhdətinin qarşısında həmişə puça çıxıb, bütün bəd niyyətləri gözlərində qalıb. Ölkədə təhlükəsizliyimizi təhdid edən planlara qarşı vaxtında uğurlu önləyici tədbirlər həyata keçirilir. İstənilən alçaq məqsədin qarşısını almaq üçün Azərbaycan kifayət qədər imkanlara və qabaqlayıcı tədbirlərə malikdir.

Azərbaycanda təmin olunmuş sabitlik dövlətimizin, xalqımızın ən mühüm nailiyyətlərindən biridir. Sabitliklə yanaşı, Azərbaycanda həm də sarsılmaz xalq-iqtidar birliyi mövcuddur. Bu da öz növbəsində Azərbaycanın daha da qüdrətlənməsinə və inkişafına xidmət edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Nazirlər Kabinetində əmək münasibətlərinin tənzimlənməsinə həsr olunmuş müşavirə keçirilib

*Əvvəli 1-ci səh.*



Həmin 300 minədək artım ümumilikdə məşğul əhalinin faiz etibarilə artımının 21,2 faizi deməkdir.

Əmək və sosial hüquqların qorunması ilə bağlı görülən işlər barədə məruzə edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib ki, 2019-cu ildə əmək müqavilələri üzrə qeydə alınan 153 min artımın 99 mini məhz özəl sektorun payına düşüb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov isə qeyd edib ki, qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində 2019-cu ildə yerlərdə bir sıra operativ vergi tədbirləri keçirilib. İl ərzində 7294 pozuntu faktı aşkarlanıb və qanunvericiliyə uyğun olaraq ilk hal olduğu üçün sahibkarlara yazılı xəbərdarlıq edilib. Lakin bundan nəticə çıxarmayaraq təkrarən belə addım atan şəxslərə 268 min manat maliyyə sanksiyası tətbiq olunub, 27 fakt üzrə cinayət işi açılıb. İl ərzində vergi orqanlarının xətti ilə sosial sığorta haqları üzrə daxilolmalar 26 faiz artaraq 2 milyard 931 milyon manat təşkil edib, proqnoz 105,8 faiz icra olunub.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov bildirib ki, ötən 2 ildə komissiyanın fəaliyyəti nəticəsində mühüm nailiyyətlər əldə olunub, çox güclü institusional baza yaradılıb. Real nəticələr görülən işlərin dinamikasında da özünü göstərir. Dövlət Statistika Komitəsi İqtisadiyyat və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri ilə birgə razılaşdırılmış metodologiya əsasında qeyri-rəsmi məşğulluğun səviyyəsinin qiymətləndirilməsi üzrə təhlillər aparıb. Bu təhlillərin beynəlxalq metodologiya əsasında hazırlanması üçün xarici ekspertlər cəlb olunub.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib: "Təhlillər göstərir ki, qeyri-rəsmi məşğulluğun yüksək olduğu sahələrdən biri də tikinti sektorudur. 2017-2019-cu illərdə bu sahədə 171 monitorinq həyata keçirilib, 170 min 600 əmək müqaviləsi imzalanıb ki, onların 90 min 451-i və ya 45 faizi sırf bu monitorinqlər nəticəsində işəgötürənlər tərəfindən bağlanmış müqavilələrdir. Yəni, monitorinqlər bu sektorda əmək müqavilələrinin 45 faiz rəsmiləşdirilməsinə imkan yaradıb".

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bildirib ki, tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması istiqamətində görülən işlər çərçivəsində komitə tikintiyə dair verdiyi icazələr, icazə almış hüquqi və fiziki şəxslər barədə məlumatları Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzinə göndərir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri Səttar Möhbalıyev qeyd edib ki, son dövrlərdə əmək hüquqlarının müdafiəsi ilə bağlı Azərbaycanda görülən işlər Beynəlxalq Əmək Təşkilatında yüksək qiymətləndirilir.

Müzakirələrdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə, Bakı Nəqliyyat Agentliyinin idarə heyətinin sədri Vüsal Kərimli, Daxili İşlər nazirinin müavini İsmət Əliyev, Fövqəladə Hallar nazirinin müavini Orucəli Hacıyev, Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev iştirak ediblər.

Sonda məsələni nəzarətdə saxlamaq, vaxtaşırı hesabat hazırlamaq barədə müvafiq qurumlara tapşırıqlar verilib və Azərbaycan Prezidentinin göstərişinə əsasən sıx koordinasiyanın vacibliyi qeyd olunub.

# Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb



Yanvarın 17-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyətinə, keçirilən monitorinqlərin nəticələrinə və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

# *Hikmət HACIYEV:* "Aİ-nin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı ardıcıl mövqeyini yüksək qiymətləndiririk"

"Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı və suverenliyi ilə bağlı ardıcıl mövqeyinin olmasını təqdir edirik".



AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Hikmət Hacıyev qeyd edib ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib. "Biz bundan əvvəl Şərq Tərəfdaşlığı ilə əlaqədar Brüssel Sammitinin yekun sənədlərinə, həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında hazırlanmış "Tərəfdaşlıq prioritetləri" sənədinə baxsaq görərik ki, Azərbaycanın ərazi bütövlüyünə münasibətdə qətiyyətli və birmənalı dəstək var. Ona görə də bunun davamı olaraq Avropa İttifaqının xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsinə dair sənəddə Şərq Tərəfdaşlığı ölkələrinin, o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyünə münasibətdə ifadə olunan bu mövqeni yüksək qiymətləndiririk" deyə Prezidentin köməkçisi bildirib.

# *Prezidentin köməkçisi:* "Ermənistan tərəfi münaqişənin həlli ilə bağlı cəfəng fikirlər söyləmək əvəzinə lazımi addımları atmalıdır"

"Ermənistan tərəfi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı cəfəng fikirlər söyləmək əvəzinə lazımi və labüd addımları atmalıdır. Bu addım da, ilk növbədə, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasıdır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi qeyd edib ki, münaqişənin həlli populizm obyekti olmamalıdır. Ermənistan işğalçı dövlətdir, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün var. Ona görə də Dağlıq Qarabağ münaqişəsinin həllində irəliləyiş əldə etmək istəyiriksə, münaqişənin fundamental əsasını təşkil edən amil, yəni işğal amili aradan qaldırılmalıdır. Sonra münaqişənin həllində müxtəlif etimad quruculuğu xarakteri daşıyan tədbirlərin həyata keçirilməsi kimi məsələlər ola bilər. Ermənistanın üzərinə düşən beynəlxalq, hüquqi və siyasi məsuliyyət ondan ibarətdir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarsın. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlərini dayandırmalıdır. Məhz bundan sonra Ermənistan tərəfi iddia edə bilər ki, danışıqlar prosesində konstruktiv və səmimi şəkildə iştirak edir.

Prezident Administrasiyasının rəsmisi Ermənistanın baş nazirinin 20 Yanvar şəhidlərini ekstremistlər adlandırmasına da münasibət bildirib: "Bu, cəfəngiyatın bariz nümunəsidir, ondan başqa nə gözləmək olardı?! Nikol Paşinyan Soljenitsını faşist cəlladı, faşist qüvvələrinin tərkibində qulluq etmiş Qaregin Njde ilə müqayisə etmişdi".

Hikmət Hacıyev deyib ki, 20 Yanvar faciəsi beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunur və şəhidlərin xatirəsi əziz tutulur. İyirmi Yanvar beynəlxalq səviyyədə, bütün diplomatik nümayəndəliklərimizdə də qeyd olunur. Bu faciə ilə bağlı müxtəlif tədbirlər keçirilir, həqiqətlər beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır.

# Ali Məhkəmənin sədri Salyanda vətəndaşları qəbul edib

Ali Məhkəmənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 17-də Ali Məhkəmənin sədri Ramiz Rzayev Salyan Rayon Məhkəməsinin inzibati binasında vətəndaşları qəbul edib.

Qəbulda hər bir vətəndaş diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə müsbət həllini tapıb. Digər məsələlər üzrə Ali Məhkəmə Aparatının qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Daha sonra Şirvan Apelyasiya Məhkəməsinin sədri və Salyan Rayon Məhkəməsi hakimlərinin iştirakı ilə müşavirə keçirilib.

Ali Məhkəmənin sədri Azərbaycan Prezidentinin məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair 2019-cu il 3 aprel tarixli fərmanının icrası üzrə görülən işlərdən bəhs edib, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, sahibkarlıq fəaliyyətinə dair mübahisələr üzrə ayrıca ixtisaslaşmış məhkəmələrin yaradılması ilə bağlı mühüm qanunların qəbul olunduğunu vurğulayıb.

Yeni regional inzibati və kommersiya məhkəmələrinin bu ilin əvvəlindən fəaliyyətə başlaması nəzərə alınaraq dövlət başçısının 2019-cu il 30 dekabr sərəncamları ilə artıq həmin məhkəmələrə hakimlərin təyinatının aparıldığı qeyd olunub, qarşıda duran vəzifələrə, o cümlədən qanunvericilikdəki yeniliklərin dürüst və vaxtında icrasının təmin olunmasına dair aidiyyəti tövsiyə və tapşırıqlar verilib.

# Bakı Şəhər Baş Polis İdarəsində ötən ilin yekunları müzakirə olunub





Yanvarın 17-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə Bakı Şəhər Baş Polis İdarəsində 2019-cu ilin yekunlarına həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəni giriş sözü ilə açan nazir V.Eyvazov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü hüquq-mühafizə siyasəti, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti nəticəsində ölkənin siyasi və sosial-iqtisadi həyatında baş verən davamlı inkişafın daxili işlər orqanlarının, o cümlədən paytaxt polisinin də fəaliyyətinin daha da təkmilləşdirilməsinə müsbət təsirini vurğulayıb.

Sonra Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidov hesabat dövründə paytaxtda cinayətkarlıqla mübarizə, ictimai qaydanın və təhlükəsizliyin təmin olunması, qazanılan nəticələr və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib.

Məruzəçi bildirib ki, ötən il paytaxtda ümumilikdə 11 min 176 cinayət qeydə alınıb. Onların 88,6 faizi az ağır, 11,4 faizi isə ağır və xüsusilə ağır növlər olub. 2018-ci illə müqayisədə hesabat dövründə ümumi cinayətlər 5,4, ağır və xüsusilə ağır cinayətlər 2,3, az ağır cinayətlər 5,4, böyük ictimai təhlükə törətməyən cinayətlər 6,6, adam öldürməyə cəhdlər 18,8, dələduzluq 33,9, soyğunçuluq 3,7, quldurluq 3,9, hədə-qorxu ilə tələb etmə 28,9 faiz azalıb.

Cinayətlərin profilaktikasında və açılmasında müasir informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyətini qeyd edən idarə rəisi "Təhlükəsiz şəhər" xidmətinin operatorları tərəfindən 5 minə yaxın hadisənin aşkarlandığını, kameraların arxiv görüntülərindən istifadə edilməklə 278 bağlı cinayətin açıldığını bildirib.

İl ərzində 34 soyğunçuluq və quldurluq cinayəti törətmiş 78 nəfərdən ibarət 33 qrupun, eləcə də 95 mənzildən oğurluq edən 131 nəfərdən ibarət 57 cinayətkar qrupun ifşa olunduğunu nəzərə çatdıran M.Seyidov narkotiklərlə bağlı aşkarlanan 1244 fakt üzrə 372 kiloqramdan çox müxtəlif növ narkotik vasitənin qanunsuz dövriyyədən çıxarıldığını, istintaqı tamamlanmış cinayət işləri üzrə vətəndaşlara dəymiş maddi ziyanın isə 94,7 faizinin ödətdirildiyini vurğulayıb.

Məruzə ətrafında çıxış edən Bakı Şəhər Baş Polis İdarəsinin aidiyyəti struktur qurumlarının və rayon polis idarələrinin rəisləri hesabat ilində əldə olunmuş müsbət nəticələrlə yanaşı, xidməti fəaliyyətdə yol verilən bəzi nöqsan və çatışmazlıqlara da toxunaraq, onların aradan qaldırılması üçün həyata keçiriləcək tədbirlər barədə məlumat veriblər.

Müşavirəyə yekun vuran Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov 2019-cu ildə paytaxtın polis orqanlarının cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki xidməti fəaliyyətini müsbət qiymətləndirib. Konkret tapşırıq və tövsiyələrini verən nazir Bakı Şəhər Baş Polis İdarəsinin, eləcə də onun aidiyyəti struktur qurumlarının və rayon polis idarələrinin rəhbər heyətindən 2020-ci ildə xidməti fəaliyyətdə əsas diqqəti şəxsi heyət arasında nizam-intizamın möhkəmləndirilməsinə, cinayətkarlığın və digər hüququqazidd əməllərin qarşısının daha da qətiyyətlə alınmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunmasına, ən əsası isə vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin olunmasına yönəltməyi tələb edib.

Qanunla müəyyən edilən vəzifələrin yüksək səviyyədə icrası üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bütün lazımi şəraitin yaradıldığını, daxili işlər orqan və hissələrinin dövlət qayğısı ilə hərtərəfli əhatə olunduğunu məmnunluqla vurğulayan general-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, bu ali diqqətə və etimada cavab olaraq Bakı şəhər polis qarnizonunun şəxsi heyəti xidməti borcunu bundan sonra da layiqincə yerinə yetirəcək.

# RF Dövlət Dumasının deputatı Dmitri Savelyev Bakıya "Əmək rəşadəti şəhəri" adı verilməsini təklif edib

RF Dövlət Dumasının deputatı Dmitri Savelyev Bakıya "Əmək rəşadəti şəhəri" adı verilməsini təklif edib.



2020-ci ildə Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi qeyd ediləcək.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Rusiya Dövlət Dumasında Sakinləri hərbi və mülki təyinatlı məhsullar istehsal edən müəssisələrdə fasiləsiz işi təmin etmiş, bu zaman kütləvi əmək fədakarlığı göstərmiş şəhərlərə "Əmək rəşadəti şəhəri" adı verilməsinin hüquqi əsaslarını müəyyən edən qanun layihəsi müzakirə olunub.

Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev bununla əlaqədar xatırladıb ki, bu gün Rusiya şəhərləri ilə bərabər, SSRİ dağılandan sonra başqa dövlətlərin ərazisində qalmış şəhərlər, məsələn Odessa, Kiyev və Brest qalası da "Qəhrəman" adı daşıyır.

Rusiyalı deputat vurğulayıb: "İndi, "Əmək rəşadəti şəhəri"nin yüksək statusunu müzakirə etdiyimiz məqamda bir presedenti hökmən nəzərə almaq lazımdır: bu ada postsovet məkanındakı şəhərlər də layiqdirlər. Məsələn, Bakıya "Qəhrəman şəhər" adı verilməsi məsələsi dəfələrlə qaldırılıb. Böyük Vətən müharibəsi dövründə Bakı sakinləri sovet tanklarını və təyyarələrini yanacaqla təchiz etmək üçün gecə-gündüz işləyiblər. Müharibə illərində Azərbaycanda "Bizim Stalinqrad hər bir neft quyusunun yanındadır" sözləri yazılmış plakatlar asılmışdı. Sovet ordusu üçün lazım olan bütün yanacağın 80 faizi buradan daxil olurdu.

Əvvələn, Rusiya SSRİ-nin hüquqi varisidir, ikincisi, bizim dövlətimiz xalqımızın tarixi yaddaşının qorunub saxlanmasına yönəlmiş siyasi kursa həmişə birmənalı şəkildə riayət edib. Bu mənada vurğulamaq məntiqlidir ki, Böyük Vətən müharibəsində Qələbə ovaxtkı vahid sovet xalqının hədsiz səyləri sayəsində qazanılıb. Bu gün biz müxtəlif ölkələrdə yaşasaq da, cəbhədə həlak olanlara və cəbhənin ehtiyacı üçün işləyənlərə, özü də bir daha vurğulamaq istəyirəm, gecə-gündüz işləyənlərə ehtiramımızı ifadə edə bilərik. Ona görə də bu qanun layihəsində Bakıya bu yüksək adın verilməsi imkanının nəzərə alınmasını istərdik.



# QANLI YANVAR - 30 İL







## Şəhidlər xiyabanı ziyarətçiləri qəbul etməyə hazırdır

**Xalqımız bu il də qanlı 20 Yanvar faciəsini böyük ehtiram və qürur hissi ilə qeyd edir. Bu münasibətlə respublikamızın müqəddəs ziyarətgahında hazırlıq və son səliqə-sahman işləri başa çatıb. Bu müqəddəs məkanda 158 nəfər 20 Yanvar şəhidi uyuyur, onlardan dörd nəfəri naməlum şəxsdir. Burada həmçinin 256 nəfər Qarabağ müharibəsi və 38 nəfər daxili qoşunların şəhidi dəfn olunub. Xiyabanda 1992-ci il yanvarın 25-26-da baş verən Daşaltı əməliyyatındakı 70 şəhidin adına da abidə ucaldılıb.**



Xalqımızın müqəddəs ziyarətgahı olan Şəhidlər xiyabanında əbədiyyət yuxusuna getmiş Vətən övladları İlahi zirvəni fəth ediblər. Bu səbəbdən də Şəhidlər xiyabanı xalqımızın müqəddəs yerlərindən sayılır. 20 Yanvar şəhidləri ilə bərabər burada uyuyan bütün şəhidlər böyük ehtiramla anılır. Çünki bu müqəddəs ziyarətgah xalqımızın həm hüzn, həm də qürur yeridir.

Öz rəngarəng görünüşü ilə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı ziyarətçilərini qəbul etməyə hazırdır.

Faciədən 30 il keçməsinə baxmayaraq, şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirmək üçün insanlar bu günlərdə də xiyabana üz tutur. Yanvarın 20-də böyük bir izdihama qoynunu açacaq bu müqəddəs məkan al-qırmızı rəngə boyanıb.

On gündən çoxdur ki, xiyabanda müxtəlif hazırlıq işləri görülür. Abadlıq, səliqə-sahman işləri ilə tanış olmaq üçün biz də Şəhidlər xiyabanına gəldik.

Tədbirlər planına uyğun olaraq, şəhidlərimizin əziz xatirəsinin dərin hüznlə yad edilməsi, 20 Yanvar faciəsinin 30-cu ildönümünün layiqincə keçirilməsi məqsədilə işlər tam yekunlaşıb.

Şəhidlər xiyabanında xüsusi hazırlanmış layihə əsasında bədii-estetik cəhətdən 20 Yanvar tematikasına uyğun dizayn-tərtibat işləri aparılıb, ərazidə cari təmir, abadlıq və təmizlik işləri görülüb, yaşıllıqlar qaydaya salınıb. Bakı Şəhər İcra Hakimiyyətinin ərazidə olan nümayəndəsi bildirdi ki, xiyabandakı bütün elektrik avadanlıqları, eləcə də naqillər yoxlanılıb və digər lazımi tədbirlər görülüb.

Hər il olduğu kimi, bu il də xiyabanın girişində xüsusi zövqlə qərənfillərdən hazırlanmış xalça göz oxşayır. Divarlara və səkilərə bərkidilən təbii qərənfillər də xüsusi düzülüşü ilə seçilir. Əraziyə cəlb olunan mənzil-kommunal təsərrüfatı birliyinin işçiləri və mütəxəssislər böyük həvəslə öz işlərini görürdülər. Xiyabanın ərazisində təmizlik və abadlıq işləri ilə məşğul olan Çərkəz Rzayev bildirdi ki, gördüyü işdən zövq alır və əməyinin qarşılığında heç bir maddiyyat güdmür. Onun fikrincə, şəhidlərə ehtiram nümunəsi göstərməkdən gözəl bir iş yoxdur və nə qədər çalışsalar da, qəhrəmanlarımızın borcundan çıxa bilməzlər. Çünki onların sayəsində bu gün müstəqil Azərbaycanda sakit həyat hökm sürür.

Yanvarın 14-dən Bakı şəhər ictimaiyyəti nümayəndələrinin, idarə, təşkilat və müəssisələrin kollektivlərinin, məktəbəqədər təhsil müəssisələrində tərbiyə alan uşaqların, orta və ali təhsil ocaqlarının şagird və tələbələrinin Şəhidlər xiyabanına ziyarəti başlayıb. Biz orada olanda Bakı şəhər orta məktəblərindən gələn şagirdlər "Müasir Azərbaycan tarixi" fənnindən 20 Yanvar faciəsi ilə əlaqədar dərslərini elə Şəhidlər xiyabanında keçirdilər.

Ziyarətçilər arasında diqqətimizi çəkən əli qərənfilli bir qrup ortayaşlı qadınlarla da tanış olduq: Yeganə Rəhimova, Kifayət Məhərrəmova, İradə Əsgərova, Sevər Rüstəmova, Sima İsrafilova və Şəfiqə Həsənova... Kifayət Məhərrəmova bildirdi ki, bakılıyam, tibb işçisiyəm, uzun müddətdir ailəmlə Türkiyədə yaşayıram. Hər il 20 Yanvar - hüzn günündə iştirak etmək üçün İstanbuldan Bakıya gəlirəm. Bir neçə saat əvvəl yaxınlarım məni beynəlxalq hava limanında qarşıladılar, elə oradan da birbaşa buraya gəlmişik. Yanvarın 20-si günü də daxil olmaqla hər gün rəfiqələrimlə buraya ziyarətə gələcəyəm. Allah-Təala bütün şəhidlərimizin ruhunu behiştlik etsin, cəmi şəhidlərin ailələrinə və xalqımıza səbir diləyirəm.

Matəm günü Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən yanvarın 20-də ziyarətə gələnlərin hərəkət marşrutunun müəyyənləşdirilməsi, ictimai asayişin qorunması, nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi, Bakı Şəhər Baş Səhiyyə İdarəsi tərəfindən isə xiyabanda təcili tibbi yardım xidmətinin təşkili həyata keçiriləcək.

Mərasim günü xiyabanda matəm musiqisi səslənəcək, digər təşkilati işlər görüləcək. Yanvarın 20-də saat 12:00-da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, faciənin ildönümü ilə bağlı hüzn əlaməti olaraq dövlət bayraqları endiriləcək. Bu an bütün dünya azərbaycanlıları və tərəqqipərvər bəşəriyyət xalqımızla həmrəy olacaq. Hamımızın üreyindən bu hisslər keçəcək - Vətən sağ olsun!

***Rəhman SALMANLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

## 20 Yanvar şəhidlərinin ailələrinə və 20 Yanvar əlillərinə birdəfəlik maddi yardım ayrılıb

20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində tədbir keçirilib. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə əvvəlcə 1990-cı ilin 20 Yanvar hadisələrindən bəhs edən film nümayiş olunub, sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

20 Yanvar faciəsindən artıq 30 il ötdüyünü bildirən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini A.Kərimov bildirib ki, 20 Yanvar günü Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi olan bir gün kimi hər il yad edilir. 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə keçmiş SSRİ rəhbərliyinin göstərişi ilə sovet hərbi birləşmələri ağır silahlı texnika ilə Azərbaycana daxil olaraq dinc əhaliyə qarşı dəhşətli qətliam həyata keçirib. Nəticədə 147 nəfər amansızcasına qətlə yetirilib, 744 nəfər yaralanıb, yüzlərlə adam itkin düşüb, 841 nəfər qanunsuz olaraq həbs edilib.

A.Kərimov qeyd edib ki, faciədən bir gün sonra, 1990-cı il yanvarın 21-də xalqımızın Ümummilli Lideri Heydər Əliyevin böyük cəsarət nümayiş etdirərək Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində sovet rəhbərliyinin bu dəhşətli cinayətini kəskin şəkildə pisləyən, günahkarların cəzalandırılması tələbini irəli sürən bəyanatla çıxış etməsi faciəyə verilən ilk siyasi qiymət olub. Ulu Öndərin təşəbbüs və tapşırığı ilə 1994-cü il martın 29-da qəbul edilən "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərarla 1990-cı ilin Qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilib.

Nazir müavini diqqətə çatdırıb ki, 20 Yanvar gününün Ümumxalq hüzn günü kimi elan olunması, "20 Yanvar şəhidi" fəxri adının təsis olunması, 20 Yanvar şəhidlərinin ailələrinin və 20 Yanvar əlillərinin sosial müdafiəsi işlərinə başlanması da Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Prezident İlham Əliyevin sosial siyasəti həmin kateqoriyadan olanların da sosial müdafiəsinin ildən-ilə güclənməsinə imkan verib. İndiyədək nazirlik tərəfindən müharibə əlilləri və şəhid ailələri sırasında 20 Yanvar əlilləri və şəhid ailələrinin mənzillə, 20 Yanvar əlillərinin minik avtomobilləri ilə təminatı da həyata keçirilib.

Qeyd olunub ki, 20 Yanvar şəhidlərinin ailələri və 20 Yanvar əlilləri Prezidentin təqaüdü ilə, 20 Yanvar əlilləri əlilliyə görə müavinət və ya pensiya ilə təmin edilirlər. 2019-cu ildə təqdim edilən iki sosial paket çərçivəsində onların müavinət və təqaüdləri də orta hesabla 100 faiz artırılıb, I dərəcə əlilliyi olan şəxslərə qulluq edənlər üçün Prezidentin aylıq təqaüdləri təsis edilib. Müharibə əlilləri və şəhid ailələri kimi, 20 Yanvar əlilləri və şəhid ailələrinin ölkəmizin ali və orta ixtisas təhsil müəssisələrində ödənişli təhsil alan övladlarının təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir.

Müvafiq Tədbirlər Planına uyğun olaraq, 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 20 Yanvar şəhidlərinin ailələrinə və 20 Yanvar əlillərinə (103-ü şəhid ailəsi üzvü və 287-si 20 Yanvar əlili olmaqla 390 nəfərə) birdəfəlik maddi yardım ayrılıb.

Tədbirdə çıxış edən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "20 Yanvar" Cəmiyyətinin sədri Sultan Əzimzadə və 20 Yanvar faciəsinin şahidlərindən biri Mübariz İsmayılov 1990-cı ilin 20 Yanvar hadisələrini xatırlayaraq həmin gecə baş verən qırğın və xalqımıza qarşı törədilən qəddarlıqdan danışıblar.

## Dövlət Sərhəd Xidmətində 20 Yanvar faciəsi ilə bağlı silsilə tədbirlər davam etdirilir

Dövlət Sərhəd Xidmətində (DSX) Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi kimi yaddaşlara həkk olunan 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı silsilə tədbirlər davam etdirilir.





DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, Dövlət Sərhəd Xidmətinin aparatında, struktur qurumlarında və hərbi hissələrində Qanlı Yanvar hadisəsinə həsr edilmiş tədbirlərdə Vətənimizin azadlığı, müstəqilliyi yolunda canlarını fəda etmiş və xalqımızın qürur mənbəyinə çevrilmiş şəhidlərin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Tədbirlərdə çıxış edən sərhədçilər, Milli Məclisin deputatları, elm xadimləri, ictimaiyyətin nümayəndələri xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələri barədə ətraflı məlumat verib, SSRİ rəhbərliyinin göstərişi ilə törədilmiş dəhşətli cinayətin Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini nəinki qıra bilməsi, əksinə, milli azadlıq mübarizəsini daha da gücləndirməsini qeyd ediblər. Qanlı faciədən dərhal sonra Ulu Öndər Heydər Əliyevin böyük cəsarət nümayiş etdirərək ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bəyanat verməsi, təcavüzə kəskin etiraz bildirməsi, qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdirməsi xüsusi vurğulanıb.

Qanlı Yanvar hadisələrinə dövlət səviyyəsində əsl siyasi-hüquqi qiymətin yalnız Ümummilli Lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra verilməsi qeyd edilib. Ulu Öndər 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutaraq onların adlarının əbədiləşdirilməsi ilə bağlı bir sıra fərman və sərəncamlar imzalayıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ölkəmizin azadlığı, suverenliyi uğrunda həlak olanların xatirəsinə böyük ehtiramın göstərilməsi, şəhidlərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi və onlara dövlət qayğısının daha da artırılması məqsədilə mühüm qərarların qəbul olunması barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Dövlət Sərhəd Xidmətinin aparatında keçirilmiş tədbirdə "Şəhidlər xiyabanı" adlı kompozisiya proqramı ilə DSX Xüsusi Məktəbinin kursantları çıxış ediblər.

Tədbirlərdə 20 Yanvar faciəsinə dair sənədli filmlər nümayiş etdirilib.

***"Azərbaycan"***

## 30 il əvvəl yazılan qəhrəmanlıq salnaməsi

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 20 yanvar 1990-cı ildə baş vermiş faciənin otuzuncu ildönümü münasibətilə tədbir keçirilib. Əvvəlcə faciə zamanı qətlə yetirilmiş insanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Mərasimi giriş nitqi ilə açan institutun rektoru Ceyhun Məmmədov vurğulayıb ki, ali təhsil müəssisəsi gənclərin milli və vətənpərvərlik ruhunda tərbiyə edilməsi, mənəvi dəyərlərin təbliği istiqamətində müxtəlif tədbirlər həyata keçirir. O, qeyd edib ki, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq salnaməsi kimi yazılan 20 Yanvar faciəsi barədə gənclərimiz geniş məlumatlandırılmalı, onlarda vətənpərvərlik hissləri daha da yüksəldilməlidir.

Rektor C.Məmmədov söyləyib ki, 1990-cı ilin 20 Yanvar gecəsi Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub. Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin gecə canlarından keçərək şəhidlik zirvəsinə yüksəliblər.

Keçmiş sovet imperiyasının ağır texnikasının Azərbaycanda törətdiyi qanlı qırğından 30 il keçməsinə baxmayaraq, xalqımız o gecəni daim xatırlayır, həmin faciənin ağrı-acısını yaşayır. Hər il yanvarın 20-də minlərlə insan Şəhidlər xiyabanına gəlir, şəhidlərimizi ziyarət edir, Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad edirlər.

AİI rəhbəri bildirib ki, Ulu Öndər Heydər Əliyev 20 Yanvar faciəsi zamanı şəhid olanların ailələrinə, sözügedən qanlı qırğında əlil olmuş vətəndaşlarımıza diqqət və qayğısını heç zaman əsirgəməmişdir. Ümummilli Liderin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən də ölkəmizin azadlığı və müstəqilliyi uğrunda şəhid olanların ailələrinə və sağlamlığını itirmiş şəxslərə həmişə xüsusi diqqət yetirilir, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması, sosial problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri, Qarabağ veteranı Səriyyə Cəfərova bu qanlı olayın xalqımızın iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədiyini, həmin gecədə şəhid olmuş Azərbaycan oğullarının Vətənin müstəqilliyinə yol açdıqlarını diqqətə çatdırıb. Bildirib ki, bu təlatümlü hadisə xarakter etibarilə faciə olsa da, şərəfli tariximizdir. Ona görə də 20 Yanvar Azərbaycan tarixinin milli qürur günü kimi qeyd olunur. Şübhəsiz ki, vətənimiz Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi daim yad ediləcək və qəlbimizdə əbədi yaşayacaqdır.

Daha sonra ali təhsil müəssisəsinin birinci kurs tələbəsi, AİI TGT-nın sədri Nicat Hüseynov 20 Yanvar faciəsi zamanı gənclərin Vətən uğrunda göstərdiyi misilsiz şücaətdən danışıb. O, hazırda gənclərimizin üzərinə düşən vəzifələrdən bəhs edərkən bildirib ki, müstəqil ölkəmizin suverenliyi, haqq səsimizin beynəlxalq arenaya çatdırılması uğrunda birləşməli, birgə mübarizə aparmalıyıq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# ADA Universiteti Xarici İşlər Nazirliyi ilə birgə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunan tədbir təşkil edib






Yanvarın 17-də ADA Universiteti Xarici İşlər Nazirliyi ilə birgə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunan tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, ADA Universitetində keçirilən tədbirdə xarici ölkələrin səfirləri, bu ali təhsil müəssisəsinin müəllimləri və tələbələri iştirak ediblər.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva tədbiri açaraq 20 Yanvar faciəsinin xalqımızın azadlıq mübarizəsinin rəmzi, şəhidlərin isə ilk qəhrəmanlarımız olduğunu söyləyib. O vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, 20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq o, təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin, azadlıq istəyinin oyanış günü idi.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev bildirib ki, Azərbaycan xalqı 20 Yanvarı həm kədərlə, həm də qürurla qeyd edir. Qürurla ona görə qeyd edir ki, 20 Yanvar müstəqilliyimizin müəyyənləşdirilməsində çox mühüm rol oynayıb.

Hafiz Paşayev ABŞ-da 20 Yanvar faciəsi ilə bağlı dərc edilən məqalələrdən, kitablardan söz açıb. O deyib ki, Azərbaycanın müstəqillik hərəkatı ilə bağlı həqiqətləri amerikalılara çatdırmaq çox vacib idi. Onlar bu mövzuya çox dərindən yanaşdılar. 1990-cı ilə qədər amerikalılar Azərbaycan haqqında çox şey bilmirdi və o hadisələr zamanı baş verənlər haqqında çoxlu yalan məlumatlar var idi.

Xarici İşlər naziri Elmar Məmmədyarov deyib ki, 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş ən qanlı hadisələrdən biridir. Bu faciənin törədilməsinin müxtəlif səbəbləri var idi. Bu hadisələrin arxasında müəyyən qüvvələr dayanırdı. Guya keçmiş sovet qüvvələri Azərbaycan xalqını qorumağa gəlmişdi. Lakin SSRİ Müdafiə naziri Dmitri Yazov sonradan demişdi ki, onların əsas məqsədi sovet idarəçiliyini qorumaq, qeyri-kommunist, milli qüvvələri cəzalandırmaq idi. Onlar eyni zamanda bununla digər sovet ölkələrindəki milli qüvvələrə bir dərs vermək istəyirdilər. 20 Yanvar faciəsi Azərbaycanda 70 illik sovet idarəçiliyinin sona çatmasına səbəb oldu.

Nazir Sumqayıt hadisələrinin başvermə səbəblərindən də danışıb. O qeyd edib ki, bu hadisələrin arxasında da müəyyən qüvvələr dayanırdı. Sumqayıt hadisələri zamanı Eduard Qriqoryan şəxsən Sumqayıtda 6 erməni qətlə yetirmişdi.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib ki, 20 Yanvar faciəsi təkcə elə həmin gecə baş verən bir hadisə deyildi. 20 Yanvara Sumqayıt hadisələrindən başlayan və Xocalıda davam edən bir hadisə kimi baxmaq lazımdır. Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə prosesi aparılırdı və bu proses Dağlıq Qarabağda da həyata keçirildi. Bu proseslər məhz Ulu Öndər Heydər Əliyevin sovet rəhbərliyindən uzaqlaşdırılmasından sonra həyata keçirildi. 20 Yanvar faciəsinə hərbi nöqteyi-nəzərdən də baxmaq lazımdır. Bakının yad şəhər kimi işğalı planı hazırlanmışdı. Tank və digər birləşmələrdən istifadə edildi, yalnız artilleriya çatmırdı. Məqsəd insanları küçələrdə kütləvi şəkildə öldürmək idi. Bu proses həm də informasiya blokadası şəraitində həyata keçirildi. Xarici jurnalistlər Moskvada akkreditasiyada idi və Bakıya buraxılmamışdılar. Ulu Öndər Heydər Əliyevin Moskvada Azərbaycan nümayəndəliyinə getməsi və orada mətbuat konfransı keçirməsindən sonra beynəlxalq mediada fərqli mənzərə yarandı. Prezidentin köməkçisi qeyd edib ki, sovet hökumətinin istəyi Azərbaycan xalqının iradəsini qırmaq idi. Ancaq bu, mümkün olmadı. Biz müstəqilliyimizi əldə etməyə nail olduq.

Tədbir digər çıxışlarla davam edib.

# UNEC-də 20 Yanvar faciəsinin 30-cu ildönümü qeyd olunub





Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) 20 Yanvar faciəsinin 30-cu ildönümü qeyd olunub.

Tədbirdən öncə rektor, professor Ədalət Muradov, universitetin kollektivi və UNEC-in şəhid olan tələbə və məzunlarının ailə üzvləri universitetin əsas binasında şəhidlərin xatirəsinin əbədiləşdirildiyi Memorial-Xatirə Kompleksini ziyarət ediblər, kompleksin önünə əklil qoyublar və gül dəstələri düzüblər.

Şəhid ailələri ilə görüşən rektor 20 Yanvarın Ümumxalq hüzn günü olmaqla yanaşı, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparan xalqımızın tarixinə birlik və şərəf günü kimi yazıldığını qeyd edib. Vətənin azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsinin UNEC-də daim ehtiramla yad edildiyini və əziz tutulduğunu vurğulayaraq, onlarla qürur duyduğunu ifadə edib.

Abidənin ziyarətindən sonra tədbir bədii hissə ilə davam edib.

Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra UNEC Yaradıcılıq Mərkəzinin və Tələbə teatrının Xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması əsasında hazırladığı tamaşa nümayiş olunub. Poema və tarixi faktlar əsasında qurulan tamaşada 20 Yanvar hadisələrinə aparan siyasi durum, şəhidlərimizin qəhrəmanlığı tələbələrin ifasında xüsusi məharətlə canlandırılıb. Muğam parçaları və tələbə xanəndənin ifası ilə müşayiət olunan tamaşa iştirakçılara kövrək anlar yaşadıb.

Tədbir çərçivəsində Texnologiya və dizayn fakültəsinin tələbələrinin 20 Yanvara həsr olunan rəsm əsərləri də nümayiş olunub.

***"Azərbaycan"***

# Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi





Gəncə Dövlət Universitetində 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş "20 Yanvar - tariximizin şərəf və qəhrəmanlıq səhifəsi" mövzusunda tədbir keçirilmişdir.

20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad ediləndən sonra faciədən bəhs edən sənədli film nümayiş olunmuş, tələbələr "20 Yanvar - tariximizin şərəf və qəhrəmanlıq səhifəsi" adlı ədəbi-bədii kompozisiya göstərmişlər.

Tədbirdə çıxış edənlər bildirmişlər ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə qətlə yetirilənlərin arasında azərbaycanlılarla yanaşı, digər xalqların nümayəndələri də olmuşdur. Bu isə bir daha sübut edir ki, ölkəmizin suverenliyi və bölünməzliyi uğrunda digər millətlərin nümayəndələri də Azərbaycan xalqı ilə həmrəy olmuş və birlik nümayiş etdirmişlər.

Ümummilli Lider Heydər Əliyev 1990-cı il yanvarın 21-də həyatını təhlükə altında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xarici jurnalistlər qarşısında imperiyanın və Mixail Qorbaçovun xalqımıza düşmən siyasətini qətiyyətlə ifşa etmişdir. Ulu Öndərin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra isə bu hadisələrə tam siyasi-hüquqi qiymət verilmişdir.

Tədbirdə faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, 20 Yanvar şəhidlərinə xüsusi diqqət və qayğı göstərilməsində Prezident İlham Əliyevin xidmətləri də xüsusi qeyd edilmişdir. Bildirilmişdir ki, həmin qanlı gecədə şəhid olmuş və zərər çəkmiş bütün insanlar dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşlar.

Tədbirdə 20 Yanvar hadisələrindən bəhs edən sərginin nümayişi də olmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Dənizdə haqq savaşı

## Kapitan Rövşən Dəmirov: "Yarım saat dayanmadan gəmini güllələdilər"

***Əvvəli 1-ci səh.***

Bakı buxtasında Sovet imperiyası ilə ölüm-dirim savaşına çıxan, hökumətə ultimatum verən, qətliamı dünya ictimaiyyətinə ilk çatdıran, informasiya blokadasını yaran, şəhərdəki qırğınların qarşısını öz etiraz aksiyaları ilə alan cəsur dənizçilərimiz oldu. Hərbi gəmilərin hərəkətinə yol verməyən, şəhidlərimizin cəsədlərini dənizə tökməyə mane olan Xəzər Dəniz Neft Donanmasının qəhrəman dənizçiləri idi. Məhz onların verdiyi "SOS!"la dünya ölkələri Sovet ordusunun Azərbaycan xalqını güllələbaran etdiyini öyrəndi...

### 50-dən çox ölkəyə göndərilən "SOS!"

O dənizçilərdən biri hazırda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin dəniz üzgüçülüyünün təhlükəsizliyi departamentinin rəisi, "Gəmiçilik sahəsində xidmətlərə görə" medalı ilə təltif olunmuş Rövşən Dəmirovdur. O zaman 30 yaşı olan Rövşən Dəmirov "Neftqaz-64" gəmisinin kapitanı idi. Məhz o, ilk dəfə tarana gedib, yarım saat güllə "yağışı" altında hərbi gəmilərin qarşısını almağa cəhd edib. Otuz il əvvəl baş vermiş o dəhşətli hadisələri kapitan Rövşən Dəmirov belə nəql edir:

- Üstündən üç onillik keçib, bu gün də həmin hadisələri xatırlayanda eyni hissləri yaşayıram, elə bil yenidən o günə qayıdıram, adama pis təsir edir. Yanvarın 19-dan 20-nə keçən gecə bütün gəmilər ratsiya ilə bir-birilərinə xəbər verdilər ki, Sovet ordusu Bakıya soxulub. Mən ayın 19-u evdə idim. Kapitanı olduğum gəmi isə Zığ körpüsündə dayanmışdı. 20-si səhər saat 10 radələrində körpüyə gəldim. Gördüm kapitanlar Gülağa Məcidovla Kərəm Məmmədov qızğın söhbət edirlər. Mən də onlara qoşuldum, başladıq hadisələri müzakirə etməyə və qərara gəldik ki, susmayaq, etirazımızı bildirmək üçün gedək dəniz vağzalına. Dedim, qoy gedim gəmimin vəziyyətinə baxım. Elə gəmiyə çatmışdım Gülağa gəldi ki, "Zığ 1 körpüsünə xəbər verməyə gedirəm ki, hamı yığışsın. İstəyirik dərhal çıxaq". Gəmini körpüdən araladım və dəniz vağzalına - Bakı buxtasına tərəf istiqamət götürdüm. Bir neçə dəqiqə sonra çönüb geriyə baxanda gördüm onlarca gəmi arxamızca gəlir. Elə yolda bütün gəmilər fit verməyə, həyəcan siqnalını aramsız, dayanmadan verməyə başladıq. "Vixr-12" gəmisi də bizə qoşuldu. Kapitanı İbrahim Salayev yaşlı kişi idi. Dedi: "Rövşən, qoy mən irəlidə gedim. Mən sizdən yaşlıyam, nəsə olsa, birinci mənə olsun". O, irəli keçdi, ardınca mən və digər gəmilər. Təxminən 50-yə qədər gəmi ilə siqnal verə-verə Bakı Dəniz Vağzalına çatdıq, lövbəri salıb dayandıq. Etiraz əlaməti olaraq fiti də dayandırmadıq. Bakıda hər yerdə eşidilirdi. Çox vahiməli səs yayılırdı...

Sonra kapitanlar "Sabit Orucov" gəmisinə toplandılar. Bu gəmi Bakı limanının sərnişin vağzalında dayanmışdı. Elə həmin gəmi qərargah seçildi. Sahildə bütün xəbərləri dənizçilər oradan alırdılar. Müzakirələr nəticəsində qərar verdik ki, təşkilatlanaq, pərakəndə hərəkət etməyək. 7 kapitandan ibarət Kapitanlar şurası yaratdıq. Kapitanlar şurası qərara gəldi ki, siqnalı gündüz hər yarım saatdan, gecə hər saatdan bir 5 dəqiqə verək, "SOS" mətni və tələbnamə hazırlayaq. Dənizçilərimiz 5 müddəadan ibarət tələbnamə qəbul edib Sov. İKP Baş katibi M.S.Qorbaçovun, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarovanın, SSRİ Ali Sovetinin deputatı neftçi Qurban Abbasovun və Bakının hərbi komendantının ünvanına göndərdilər. Tələbnamədə qeyd olunmuşdu ki, qoşunu Bakıdan çıxarmasanız, Qara şəhəri yandıracağıq. Axşam isə "SOS" mətni oxundu və təsdiqləndi. Amma "SOS"un verilməsində çətinlik yarandı. Radistlərin əksəriyyəti radioqram verməyə çəkinirdi. Axırda "Vixr-12" gəmisinin radisti, milliyyətcə rus olan, adının gizli saxlanmasını istəyən bakılı gənc bu işi öz boynuna götürdü. Saat 22:00-da ilk "SOS" verildi və 4 dəfə təkrarlandı. Artıq saat 24:00-da bütün dünya "SOS"un mətni ilə tanış olmuşdu... Əvvəl Kalininqraddan, Qara dənizdən, Baltik dənizindən cavab gəldi ki, radioqramı aldıq, sizi dəstəkləyirik. Səhərə yaxın isə dünyanın 50-dən artıq ölkəsinin Sakit və Atlantik okeanlarında üzən gəmiləri dənizçilərimizin səsinə səs verdilər. Artıq bizim də etiraza qoşulan gəmilərimizin sayı 120-yə çatmışdı.

### "Tarana gedib gəminin birini arxadan vurduq"

- Biz Bakıda baş verən bütün hadisələri, xəbərləri ratsiya ilə bir-birimizə ötürürdük. Gəmilər radiotelefonla idarə edilirdi. Bütün danışıqlarımıza hərbçilər də qulaq asıb, maqnitofona köçürürdülər. Hərbi dənizçilər arasında yüksək vəzifəli ermənilər də var idi. Onlar hər dəqiqə bizi hərbi dənizçilərlə üzbəüz qoymağa çalışırdılar. Hərdən bizimlə telefon əlaqəsinə girir, çaşdırıcı suallar verirdilər. Olduqca ağır vəziyyət idi. Bir onu bilirəm ki, ordunun vəhşiliyi qaranlıqda dənizdən çox aydın görünürdü. Bu çətin gündə bir araya gələ bilməyimiz qürurvericidir. Dənizçilər bir daha öz həmrəyliyini, vətənpərvərliklərini sübut etmişdilər. Başqa cür də ola bilməzdi.

Yanvarın 21-i radiostansiyadan eşitdik ki, hərbiçilər şəhidlərimizin meyitlərini gəmiyə yükləyib dənizə atmağa aparırlar. Axşam saat 19:00 olardı. Gördük hərbi gəmilərin indiki Bayraq meydanının ərazisində yerləşən bazasından 2 gəmi çıxır. Fikirləşdik ki, yəqin meyitləri elə bu gəmilərə yükləyiblər. Tez gəmini işə salıb həmin istiqamətə yan aldım. Gəmidə ikicə nəfərdik - mən və baş köməkçim Səlahət Axundov. Gəmilərin qarşılarını kəsmək istəyirdik. Gördük hərəkət işıqlarını yandırmayıblar. Bütün işıqları söndürülüb, amma hərəkət edirlər. Əvvəl projektorla işarə verdik ki, saxlasınlar, amma saxlamadılar. Biz də dayanmadıq. Heç fikirləşib narahat da olmurduq ki, birdən bizi atəşə tutarlar, nəsə baş verər. Şəhərdəki qətliamdan, camaatın başına gətirdikləri faciədən o qədər qəzəblənmişdik ki, gözümüz heç nə görmürdü. Fikrimiz o idi ki, gəmilərin qarşısını kəsək, birini vurub batıraq. Tarana gedib gəminin birini arxadan vurduq. Sən demə, bir torpedo daşıyan hərbi gəmi də bunları müşayiət edirmiş. Biz onu görmürdük. Elə bu anda bizi atəşə tutdular. Özü də avtomatla yox, pulemyotla, işıqsaçan güllələrlə. Bizim gəminin gövdəsinin qalınlığı bir santimetrə qədər idi. Onu adi avtomat gülləsi deşmirdi. Hərəkəti dayandırmadıq. Sükanı qoymuşduq sağ tərəfə, gəmi yerində dairəvi dönürdü. Atəş də dayanmırdı, elə bil dolu yağırdı. Gəminin irəli və yan tərəfləri qalın şüşədir. Güllə dəyəndə şüşə qırılmırdı. Amma çatlayır və rəngi süd rənginə çevrilirdi. Bir salamat şüşə qalmamışdı. Sanki içərini duman bürümüşdü, heç nə görmürdük. Gəmi nisbətən hündür olduğu üçün aşağıda atılan güllə bizə dəymirdi. Biz gəminin idarə mərkəzindən aralı dayanmışdıq. Yanımızdan keçib divara, tavana dəyirdi. Divar saatına güllə dəymişdi. Elə həmin anda dayanmışdı - 19:45-də. Deməli, hardasa yarım saat dayanmadan gəmini güllələdilər. Gördük yox, bunlar əl çəkməyəcəklər gəminin iki qırmızı dairəvi qəza işığını yandırdıq. Bu o deməkdir ki, artıq gəmi saya oturub. İşıqları yandıran kimi atəş səsi də dayandı. Təəccübləndik. Elə bildilər gəmi batır, çıxıb getdilər. Gülağa Məcidov atəş səslərini eşidəndə bizim ardımızca hərəkət edib. Onu da görəndə atəş açdılar. Güllə gəminin pəncərəsini deşmişdi. Amma artıq gec idi, gəmilərin qarşısını almaq mümkün olmadı. Üzüb getdilər. Və öyrənə bilmədik ki, o gecə iki gəmidə nə apardılar...

### "Sahildən və dənizdən gəmilərimizə hücum etdilər"

- Qayıtdıq dəniz vağzalına, körpüyə yan aldıq. Gördülər gəmidə salamat yer qalmayıb. Səhəri gün kinostudiyadan çəkiliş heyəti gəlib, sənədli xronika üçün gəmini lentə aldılar. Onda mindən artıq güllə yeri tapdılar. Qismətə bax ki, mindən çox gülləden heç biri bizə dəyməmişdi. Sonradan gəmi bir neçə dəfə təmir olundu, bütün şüşələrini dəyişdirdilər. Amma həmin güllə izləri "Neftqaz-64"-də indi də qalır. Sadəcə gövdəsinə qurğuşun vurub rəngləmişik. Rəngi qoparsaq, o izləri görmək olar...

O gündən sonra hadisələr daha da gərginləşdi. Kapitanlar şurasının üzvləri SSRİ müdafiə nazirinin hərbi donanma üzrə birinci müavini Sidorovla, SSRİ-nin müdafiə naziri Dmitri Yazovla görüşdülər. Kapitanlar görüşlərdə də bildirdilər ki, qoşunları Bakıdan çıxarmasınız, Qara şəhəri yandıracağıq. Yazov isə hiddətlə əmr vermişdi ki, yanvarın 23-də buxtada bircə gəmi də qalmasın. Əks təqdirdə saat 16:00-da bütün gəmilərə hücum ediləcək. Hədə-qorxuya baxmayaraq, heç bir kapitan sözündən dönmədi. Elə Yazov da dediyi kimi etdi. Sahildən tanklar, toplar, pulemyotlarla, dənizdən hərbi katerlərlə, havadan vertolyotlarla gəmilərimizə hücum etdilər. Gəmilərimizə minlərlə güllə çırpıldı, alova büründü. Sonda qayıtdıq öz bazamıza.



Yanvarın 29-u və 30-u bütün gəmiləri yoxlayıb baxış keçirdilər. İki gün dalğıclar mənim gəmimin altını yoxladılar. Onda bildik ki, sən demə, ayın 21-i bizə atəş açdıqları vaxt gəmini batırmaq üçün torpedo buraxıblar. Sadəcə, gəmi dairəvi hərəkət etdiyi üçün torpedodan yayınıb. Biz qəza işığını yandıranda isə elə biliblər ki, gəmi deşildiyi üçün işığı yandırmışıq.

100-dən artıq dənizçini - kapitan və köməkçiləri həbs etdilər. Onların yarısı bir ay Orenburq və Ulyanovskidə həbsdə qaldı. Həbsdən yayına bilən kapitanlar da oldu. Onlardan biri də mən idim. Bir nəfər xəbər verdi ki, hərbçilər gəlir, çıxın gedin evinizə, ağına-bozuna baxmayıb hamını həbs edəcəklər. Etiraz lazım idi, onu elədim, tarana getdim, amma oturub həbs olunmağımızı gözləmək yersiz olardı. Mən, Kərəm Məmmədov və bir neçə kapitan gəmidən çıxıb getdik. Bizi tapa bilmədilər, beləcə, həbsdən yayındıq...

Hesab edirəm ki, o dəniz savaşında hərbi gəmilərlə döyüşdən bizim gəmilər qalib çıxdı. Vuruşmağa silahımız yox idi, amma qorxmadan etirazımızı bildirdik, rejim qarşısında susmadıq, əyilmədik. Sovet hökumətinə bəyanat, ultimatum verdik. Gəmilərin qarşısını kəsmək cəhdimiz onlarda qorxu yaratdı ki, deməli, bizimlə bu dildə danışmaq olmaz. Ondan sonra eşitdik ki, qoşunların bir hissəsi şəhərdən çıxarıldı, əsgərlər dəyişdirildi. Məsələnin ciddiyyətinin fərqinə varmasaydıq, o boyda SSRİ-nin müdafiə naziri kapitanları görüşə çağırmazdı. Bəlkə də növbəti qırğınların qarşısını alan gəmi kapitanlarının bu cəsarəti, dönməzliyi oldu. O vaxt dənizçilərin göstərdiyi şücaət əslində qiymətsizdi. İndi bəzən ağız büzürlər ki, gəmilər nə iş görüb, dayanıb siqnal veriblər də... Amma dünyada belə bir hadisə olmayıb - mülki donanma hərbi gəminin qarşısını kəssin, hökumətə təsir göstərsin, etiraz səsini ucaltsın. Bu, başqa ölkədə olsaydı, o dənizçilər haqqında film çəkib, bütün dünyaya yayardılar. Başqa ölkənin dənizçiləri belə bir rəşadət göstərsəydilər, indi dünya bu qəhrəmanlıqdan danışardı. Amma bizdə susurlar, üstəlik bəzən bunu mərdlik kimi yox, səthi bir məqam kimi təqdim etməyə çalışırlar. Bu da bizi incidir. Ölkənin o ağır günlərində 120 kapitanın birlik olub dəniz döyüşünə çıxması elə əsl mərdlik idi.

Bu, 20 Yanvar qətliamının şahidlərindən, dənizdə haqq savaşına çıxan 120 kapitandan biri idi. O kapitanlar ki, qaranlıq ümmanda yaşanan təlatümlərə sinə gərərək gəmilərinin sükanını azadlıq yoluna doğru çevirdilər və 70 illik bir istibdadın buxovlarını qıraraq, Azərbaycanın müstəqillik "sahilində" əbədi lövbər saldılar...

***(Ardı var)***

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

QƏRAR 11/70

## Mərkəzi Seçki Komissiyasının 9 yanvar 2020-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 9 yanvar 2020-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.01.2020-ci il*

QƏRAR 11/71

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən Mətbuat qrupunun tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (Mərkəzi Seçki Komissiyası) 4 sentyabr 2008-ci il tarixli 17/85 saylı Qərarı ilə kütləvi informasiya vasitələrində seçkiqabağı təşviqatın aparılması üçün müəyyən edilmiş qaydalara riayət etmək məqsədilə komissiyanın nəzdində Mətbuat qrupu yenidən formalaşdırılmışdır.

Seçkiqabağı təşviqatın aparılmasında qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarət etmək məqsədilə yaradılmış Mətbuat qrupunun fəaliyyətinin daha da təkmilləşdirilərək günümüzün tələblərinə cavab verəcək standartlara uyğun fəaliyyət göstərməsi üçün həmin qrupun tərkibində müvafiq dəyişiklik edilməsi zərurəti yaranmışdır.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 74.5-ci maddələrinə və "Kütləvi informasiya vasitələrində seçkiqabağı (referendumqabağı) təşviqatın aparılması qaydalarına əməl olunmasına nəzarət üzrə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində Mətbuat qrupu haqqında Əsasnamə"nin 1.1-ci bəndinə əsasən **qərara alır:**

1. Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən Mətbuat qrupunun tərkibindən ANS media və yayım şirkəti, "Space" Müstəqil Teleradio Şirkəti, Olaylar İnformasiya Agentliyi, "Kaspi" qəzeti və "Gündəlik teleqraf" qəzetinin nümayəndələri çıxarılsın.

2. Mətbuat qrupunun tərkibinə REAL Təhlil İnformasiya Mərkəzi, Azad Azərbaycan Müstəqil Teleradio Kompaniyası, Report İnformasiya Agentliyi, "Gündəlik Teleqraf" və Azərbaycan Mətbuat Şurasının nümayəndələri daxil edilsin.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.01.2020-ci il*

QƏRAR 11/73

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 yanvar 2020-ci il tarixli 21 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 8 saylı Binəqədi birinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Rzağa İsmayıl oğlu 2020-ci il yanvarın 15-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair 8 saylı Binəqədi birinci seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 14 yanvar 2020-ci il tarixli 9/5 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd R.İ.Məmmədov müraciətində bildirmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 8 saylı Binəqədi birinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, həmin seçki dairəsinin ərazisində seçicilərin imzası toplanaraq imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, lakin mülkiyyət hüququ əsasında ona məxsus əmlak barədə məlumatı təqdim etmədiyinə görə dairə seçki komissiyasının müvafiq qərarı ilə onun namizəd kimi qeydə alınmasından imtina edilmişdir.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyası namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş R.İ.Məmmədovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını mülkiyyət hüququ əsasında namizədə məxsus daşınmaz əmlakının göstərilməməsi ilə əsaslandırmışdır.

Araşdırma ilə əlaqədar namizəd R.İ.Məmmədov tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş sənədlər dairə seçki komissiyasından tələb edilərək yoxlanılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupuna verilmişdir. İşçi qrupunun 16 yanvar 2020-ci il tarixli rəyində göstərilir ki, Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətindən verilmiş arayışdan müəyyən edilir ki, namizəd R.İ.Məmmədovun əmlakı barədə təqdim etdiyi məlumatda göstərilməyən daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması aşkar olunmuşdur.

Namizəd R.İ.Məmmədovun daşınmaz əmlakı barədə dairə seçki komissiyasına düzgün məlumat verməməsi Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən onun namizədliyinin qeydə alınmasından imtina üçün hüquqi əsas yaratmışdır.

Göstərilənlərə əsasən şikayət təmin edilməməli, R.İ.Məmmədovun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 14 yanvar 2020-ci il tarixli 9/5 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 148-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 8 saylı Binəqədi birinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Rzağa İsmayıl oğlunun 15 yanvar 2020-ci il tarixli 21 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 14 yanvar 2020-ci il tarixli 9/5 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.01.2020-ci il*

QƏRAR 11/72

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 yanvar 2020-ci il tarixli 18 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 45 saylı Abşeron seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Rəhimov Zahir Xanoğlan oğlu 2020-ci il yanvarın 15-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair 45 saylı Abşeron seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 14 yanvar 2020-ci il tarixli 5/17 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd Z.X.Rəhimov müraciətində bildirmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 45 saylı Abşeron seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, həmin seçki dairəsinin ərazisində seçicilərin imzası toplanaraq imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, lakin əmlak barədə məlumatda göstərdiyi əmlaklardan əlavə ailə üzvü kimi paylı mülkiyyətdə olan torpaq sahəsinə dair məlumat təqdim etmədiyinə görə dairə seçki komissiyasının mübahisələndirdiyi qərarı ilə onun namizəd kimi qeydə alınmasından imtina edilmişdir.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş Z.X.Rəhimovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, işçi qrupunun üzvü tərəfindən namizədin əmlakı barədə məlumatların yoxlanılmasına dair rəyində onun paylı mülkiyyətində topaq sahəsinin olması müəyyən edilmiş və namizəd əmlak barədə məlumatları seçki sənədində düzgün göstərmədiyinə görə Seçki Məcəlləsinin 58.1.5-ci və 60.2.3-cü maddələrinə əsasən onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma ilə əlaqədar namizəd Z.X.Rəhimov tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş sənədlər dairə seçki komissiyasından tələb edilərək yoxlanılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupuna verilmişdir. İşçi qrupunun 16 yanvar 2020-ci il tarixli rəyində göstərilir ki, namizəd Z.X.Rəhimovun əmlakı barədə təqdim etdiyi məlumatda göstərilməyən, lakin paylı mülkiyyət hüququ əsasında ona məxsus dövlət qeydiyyatına alınmış kənd təsərrüfatı təyinatlı torpaq sahəsi aşkar olunmuşdur.

Həmçinin rəydə qeyd edilir ki, namizəd tərəfindən Seçki Məcəlləsinin 58.1.6-cı maddəsinin tələbinə uyğun olaraq ilkin maliyyə hesabatı da zəruri seçki sənədlərinə əlavə edilməmişdir.

Beləliklə, Z.X.Rəhimovun ona məxsus əmlak barədə dairə seçki komissiyasına düzgün məlumat verməməsi, həmçinin ilkin maliyyə hesabatını təqdim etməməsi Seçki Məcəlləsinin 60.2.2-ci və 60.2.3-cü maddələrinə əsasən namizədliyin qeydə alınmasından imtina üçün əsasdır.

Göstərilənlərə əsasən şikayət təmin edilməməli, Z.X.Rəhimovun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 14 yanvar 2020-ci il tarixli 5/17 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 148-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 45 saylı Abşeron seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Rəhimov Zahir Xanoğlan oğlunun 15 yanvar 2020-ci il tarixli 18 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 14 yanvar 2020-ci il tarixli 5/17 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.01.2020-ci il*

QƏRAR 11/74

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 yanvar 2020-ci il tarixli 22 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə namizədliyi Vətəndaş Həmrəyliyi Partiyası tərəfindən irəli sürülmüş İmamov Pünhan Şahin oğlu 2020-ci il yanvarın 16-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 14 yanvar 2020-ci il tarixli 07/16 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd P.Ş.İmamov müraciətində bildirmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 114 saylı Şəki kənd birinci seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 07/16 saylı qərarı ilə əmlak barədə məlumatlarının düzgün göstərilməməsi səbəbindən onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş P.Ş.İmamovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını əmlak barəsində məlumatda mülkiyyət hüququ əsasında namizədə məxsus paylı mülkiyyətdə olan daşınmaz əmlakının göstərilməməsi ilə əsaslandırmışdır.

Araşdırma ilə əlaqədar namizəd P.Ş.İmamov tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş sənədlər dairə seçki komissiyasından tələb edilərək yoxlanılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupuna verilmişdir. İşçi qrupunun 16 yanvar 2020-ci il tarixli rəyində göstərilir ki, namizəd P.Ş.İmamovun əmlakı barədə təqdim etdiyi məlumatda göstərilməyən, lakin paylı mülkiyyət hüququ əsasında ona məxsus dövlət qeydiyyatına alınmış kənd təsərrüfatı təyinatlı torpaq sahələri aşkar olunmuşdur.

Beləliklə, P.Ş.İmamovun ona məxsus daşınmaz əmlaklar barədə dairə seçki komissiyasına düzgün məlumat verməməsi Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Göstərilənlərə əsasən şikayət təmin edilməməli, P.Ş.İmamovun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 14 yanvar 2020-ci il tarixli 07/16 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 148-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə namizədliyi 114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə Vətəndaş Həmrəyliyi Partiyası tərəfindən irəli sürülmüş İmamov Pünhan Şahin oğlunun 16 yanvar 2020-ci il tarixli 22 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 14 yanvar 2020-ci il tarixli 07/16 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.01.2020-ci il*

QƏRAR 11/75

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 16 yanvar 2020-ci il tarixli 23 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 13 saylı Xəzər-Pirallahı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Nəsirov Niyaz Eynulla oğlu 2020-ci il yanvarın 16-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək 13 saylı Xəzər-Pirallahı seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) hərəkətsizliyi nəticəsində namizədliyinin qeydə alınmamasını mübahisələndirmiş və pozulmuş hüquqlarının bərpa olunaraq namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Namizəd N.E.Nəsirov müraciətində qeyd etmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə qeydə alınmaq üçün imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədlərini dairə seçki komissiyasına qanunla nəzərdə tutulmuş müddətdə təqdim etməsinə baxmayaraq, dairə seçki komissiyası tərəfindən əsassız olaraq onun namizədliyi qeydə alınmamışdır.

Namizəd N.E.Nəsirovun müraciəti ilə əlaqədar dairə seçki komissiyasından tələb edilərək alınan müvafiq sənədlər araşdırılmışdır. Müəyyən edilmişdir ki, namizəd 2020-ci il yanvarın 3-də qeydə alınması üçün imza vərəqələri və digər seçki sənədlərini dairə seçki komissiyasına təqdim etmiş, lakin komissiya Seçki Məcəlləsində göstərilən müddətdə və qaydada həmin sənədlərə baxmamışdır.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən İşçi qrupu tərəfindən imza vərəqələri və digər seçki sənədlərinin düzgünlüyünün yoxlanılması nəticəsində tərtib edilmiş 16 yanvar 2020-ci il tarixli protokol və rəylərdən görünür ki, namizədin qeydə alınması üçün təqdim etdiyi sənədlər, o cümlədən imza vərəqələrində olan seçici imzaları Seçki Məcəlləsinin tələblərinə uyğundur.

Belə ki, namizəd tərəfindən toplanılmış 500 seçici imzasından 462-si etibarlı hesab edilmişdir ki, bu da namizədin qeydə alınması üçün kifayət edir. Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisindən seçicilərin azı 450 imzası toplanılmalıdır.

Qeyd edilənlərə əsasən şikayətin təmin edilməsi və N.E.Nəsirovun 13 saylı Xəzər-Pirallahı seçki dairəsindən deputatlığa namizəd kimi qeydə alınması üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas gətirərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 13 saylı Xəzər-Pirallahı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Nəsirov Niyaz Eynulla oğlunun 16 yanvar 2020-ci il tarixli 23 saylı müraciəti əsaslı olduğundan təmin edilsin.

2. 13 saylı Xəzər-Pirallahı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Nəsirov Niyaz Eynulla oğlunun həmin seçki dairəsi üzrə deputatlığa namizədliyi qeydə alınsın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.01.2020-ci il*

QƏRAR 11/76

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 yanvar 2020-ci il tarixli 20 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 15 saylı Yasamal birinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədli Elcan Vəliməmməd oğlu 15 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizədliyinin qeydə alınmasından imtinaya dair 15 saylı Yasamal birinci seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 3 yanvar 2020-ci il tarixli 3/10 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və pozulmuş hüquqlarının bərpa olunaraq namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Namizəd E.V.Məmmədli müraciətində qeyd etmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 15 saylı Yasamal birinci seçki dairəsi üzrə namizədliyini öz təşəbbüsü ilə irəli sürmüş, həmin seçki dairəsinin ərazisində seçicilərin imzasını toplayaraq imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədlərini dairə seçki komissiyasına təqdim etmiş, ancaq dairə seçki komissiyasının müvafiq qərarı ilə əsassız olaraq onun namizədliyi qeydə alınmamışdır.

E.V.Məmmədlinin müraciəti ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər tələb edilərək araşdırılmışdır. Müəyyən edilmişdir ki, dairə seçki komissiyasının namizədliyin qeydə alınmasından imtina edilməsi barədə 3 yanvar 2020-ci il tarixli 3/10 saylı qərarı ilə E.V.Məmmədli tərəfindən təqdim edilmiş 10 imza vərəqəsindəki 500 imzadan 163 imza işçi qrupu üzvünün rəyi əsasında etibarsız hesab edildiyindən və həmin imzalar çıxıldıqdan sonra yerdə qalan imzalar Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədliyin qeydə alınması üçün kifayət etmədiyindən Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinə əsasən onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 16 yanvar 2020-ci il tarixli protokol və rəylərdən görünür ki, E.V.Məmmədlinin namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imza vərəqələrində olan seçici imzaları Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmışdır.

*Ardı 6-cı səh.*

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 yanvar 2020-ci il tarixli 20 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

*Əvvəli 5-ci səh.*

Belə ki, namizəd tərəfindən toplanılmış 500 seçici imzasından 462-si etibarlı hesab edilmişdir ki, bu da namizədin qeydə alınması üçün kifayət edir.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisindən seçicilərin azı 450 imzası toplanılmalıdır.

Qeyd edilənlərə əsasən şikayətin təmin edilməsi və dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Beləliklə, aparılan araşdırmanın nəticələrinə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, dairə seçki komissiyasının E.V.Məmmədlinin namizəd kimi qeydə alınmasından imtinaya dair 3 yanvar 2020-ci il tarixli 3/10 saylı qərarı ləğv edilməli və o, həmin seçki dairəsindən deputatlığa namizəd kimi qeydə alınmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 15 saylı Yasamal birinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədli Elcan Vəliməmməd oğlunun 15 yanvar 2020-ci il tarixli 20 saylı müraciəti təmin edilsin, onun namizəd kimi qeydə alınmasından imtinaya dair həmin dairə seçki komissiyasının 3 yanvar 2020-ci il tarixli 3/10 saylı qərarı ləğv edilsin.
2. 15 saylı Yasamal birinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədli Elcan Vəliməmməd oğlunun həmin seçki dairəsi üzrə deputatlığa namizədliyi qeydə alınsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.01.2020-ci il*

QƏRAR 11/77

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 yanvar 2020-ci il tarixli 19 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə namizədliyi öz təşəbbüsü ilə 95 saylı Tərtər seçki dairəsi üzrə irəli sürülmüş Xudiyeva Aynurə Əjdər qızı 2020-ci il yanvarın 15-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək 95 saylı Tərtər seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) onun namizədliyinin qeydə alınmasından imtina edilməsi haqqında 13 yanvar 2020-ci il tarixli 5/21 saylı qərarının ləğv edilməsini və pozulması iddia olunan hüquqlarının bərpa edilməsi üçün müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələbinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd A.Ə.Xudiyeva müraciətində qeyd etmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə namizədliyinin irəli sürülməsi ilə bağlı dairə seçki komissiyasına 2020-ci il yanvarın 9-da müraciət edərək müvafiq sənədləri təqdim etmiş, sənədləri qəbul olunaraq ona bildiriş təqdim olunmuşdur.

Dairə seçki komissiyasının 2020-ci il 10 yanvar tarixli iclasında namizədliyinin irəli sürülməsi təsdiqlənərək ona imza vərəqələri verilmiş, özü və nümayəndələri elə həmin gün saat 18:00-a qədər seçki dairəsinin ərazisindən seçicilərin 500 (beş yüz) imzasını toplamış, saat 19:00-da imza vərəqələrini təqdim etmək üçün dairə seçki komissiyasına gəlsə də orada heç kəsin olmadığını bildirmişdir. Növbəti gün, yəni yanvarın 11-i saat 11:00-da namizədliyinin qeydə alınması üçün imza vərəqələri və digər seçki sənədlərini dairə seçki komissiyasına təqdim etmişdir.

O, imza vərəqələrini saat neçəyə qədər təqdim etməli olmasını və seçki dairəsində günün hansı saatına qədər imza vərəqələrinin qəbul ediləcəyi barədə məlumatsızlığını əsas gətirərək üzürlü səbəbdən gecikərək növbəti gün dairə seçki komissiyasına gəldiyini göstərir və hesab edir ki, təqdim etdiyi imza vərəqələrində olan seçici imzaları və digər seçki sənədləri Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmış və təqdim olunmuşdur ki, bu da onun namizəd kimi qeydə alınması üçün əsasdır. Lakin dairə seçki komissiyasının onun yuxarıda qeyd etdiklərini, əlil olmasını və yeddi saat ərzində seçicilərdən 500 imza toplamasını nəzərə almadan hüquqlarını pozan əsassız qərar qəbul etdiyini iddia edərək həmin qərarın ləğv olunmasını tələb etmişdir.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırmada və komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Müvafiq seçki sənədləri dairə seçki komissiyasından tələb olunaraq tədqiq edilmişdir. Müəyyən olunmuşdur ki, dairə seçki komissiyası A.Ə.Xudiyevanın namizədliyinin qeydə alınmasından imtina edilməsi haqqında qərarını onunla əsaslandırmışdır ki, o, 2020-ci il yanvarın 9-da dairə seçki komissiyasına müraciət edərək deputatlığa namizədliyini irəli sürmüşdür.

A.Ə.Xudiyevanın təqdim etdiyi sənədlər elə həmin gün dairə seçki komissiyası tərəfindən qəbul olunmuş və ona bildirişin təsdiq edilmiş surəti verilmişdir. Onun namizədliyinin irəli sürülməsi dairə seçki komissiyasının 10 yanvar 2020-ci il tarixli iclasında təsdiqlənərək namizədə imza vərəqələri təqdim olunmuş və ona atmalı olduğu növbəti addımlar ətraflı izah edilmişdir. A.Ə.Xudiyeva yanvarın 10-u saat 10:30 radələrində dairə seçki komissiyasına gələrək özünə xüsusi seçki hesabı açdırdığını bəyan etmişdir. Komissiyada Seçki Məcəlləsinin 91.1-ci maddəsinin tələbləri A.Ə.Xudiyevanın nəzərinə çatdırılmış və bildirilmişdir ki, o, imza toplamağa seçki hesabını açdıqdan 24 saat sonra başlaya bilər. Əks halda bu, qanunvericiliyin tələblərinə zidd olacaqdır.

Namizəd A.Ə.Xudiyeva Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən namizədliyinin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və digər seçki sənədlərini səsvermə gününə ən azı 30 gün qalmış, yəni 2020-ci il yanvarın 10-u saat 18:00-dək dairə seçki komissiyasına təqdim etməli olduğu halda, tələb olunan müddətdə müvafiq sənədləri təqdim etməmişdir. O, növbəti gün 2020-ci il yanvarın 11-i saat 11:00 radələrində dairə seçki komissiyasına gələrək imza vərəqələri və digər seçki sənədlərini təqdim etmək istəmişdir. Ona sənədlərin təqdim edilmə müddətinin ötürüldüyü bildirilmiş, komissiya üzvlərinin və özünün iştirakı ilə bu barədə akt tərtib edilərək təqdim etdiyi sənədlər dairə seçki komissiyası tərəfindən qəbul edilmişdir. Sənədlərin vaxtında verilməməsi barədə tərtib olunan aktın surəti A.Ə.Xudiyevaya təqdim olunmuşdur. Qeyd olunanlar nəzərə alınaraq Seçki Məcəlləsinin 58.1-ci və 91.1-ci maddələrinə əsasən müddət ötürüldüyü üçün A.Ə.Xudiyevanın namizədliyinin qeydə alınması qeyri-mümkün hesab edilmişdir.

Araşdırma ilə həmçinin müəyyən olunmuşdur ki, dairə seçki komissiyası bu qərarı qəbul edərkən namizədin qeydə alınması məqsədilə imza vərəqələrinin təqdim olunması üçün qanunvericiliklə müəyyən edilmiş müddətin ötürüldüyü barədə qanunun normasını düzgün tətbiq etsə də, düzgün hüquqi nəticəyə gəlməmişdir. Belə ki, "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı təsdiq edilmiş deputatlığa namizədin müdafiəsi üçün seçici imzalarının toplanması və dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında Təlimat"ın 2.3-cü bəndinə görə, dairə seçki komissiyaları imza vərəqələrini Seçki Məcəlləsində qeyd olunan müddətdə saat 09:00-dan 18:00-dək qəbul edir. Qanunvericiliklə müəyyən edilən müddətdən sonra təqdim olunan imza vərəqələri qanunla müəyyən olunmuş müddətdə verilmiş imza vərəqələrinin doğurduğu hüquqi nəticəni yaratmır. Dairə seçki komissiyası bu halı öz qərarı ilə rəsmiləşdirməlidir. Buna görə də dairə seçki komissiyası A.Ə.Xudiyevanın namizədliyinin qeydə alınması məsələsinə baxmalı deyil, məhz bu halı öz qərarı ilə rəsmiləşdirməli idi. Göründüyü kimi, namizədliyin qeydə alınması məsələsinə baxmaqla dairə seçki komissiyası Seçki Məcəlləsi və müvafiq təlimatın tələblərini pozmuşdur.

Beləliklə, dairə seçki komissiyasının qərarı əsassız və qanunazidd olduğundan A.Ə.Xudiyevanın müraciətinin həmin qərarın ləğv edilməsi hissəsində qismən təmin edilməsi, dairə seçki komissiyasının sözügedən qərarının ləğv edilməsi və dairə seçki komissiyası tərəfindən qanunvericiliklə müəyyən edilən müddətdən sonra təqdim olunan imza vərəqələri ilə əlaqədar seçki qanunvericiliyində nəzərdə tutulmuş müddəalara riayət edilməsi ilə bağlı göstəriş verilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Seçki Məcəlləsinin 112.9-cu maddəsinə görə yuxarı seçki komissiyası aşağı seçki komissiyasının qərarını ləğv etmək, məsələnin mahiyyəti üzrə qərar qəbul etmək və ya məsələyə yenidən baxılması haqqında göstəriş vermək hüququna malikdir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 58-ci, 112-ci, 112-1-ci maddələrinə, "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı təsdiq edilmiş deputatlığa namizədin müdafiəsi üçün seçici imzalarının toplanması və dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında Təlimat"ın 2.3-cü və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 95 saylı Tərtər seçki dairəsi üzrə namizədliyi özü tərəfindən irəli sürülmüş A.Ə.Xudiyevanın 15 yanvar 2020-ci il tarixli 19 saylı müraciəti qismən təmin edilsin.
2. 95 saylı Tərtər seçki dairəsi dairə seçki komissiyasının 13 yanvar 2020-ci il tarixli 5/21 saylı qərarı əsassız olduğundan ləğv edilsin və həmin dairə seçki komissiyası tərəfindən qanunvericiliklə müəyyən edilən müddətdən sonra təqdim olunan imza vərəqələri ilə əlaqədar seçki qanunvericiliyində nəzərdə tutulmuş müddəalara uyğun addım atılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.01.2020-ci il*

# AMEA Rəyasət Heyətinin iclası olub

Yanvarın 17-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin növbəti iclası keçirilib. Əvvəlcə 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev iclasda AMEA-nın Kimya Elmləri Bölməsinin və Gəncə Bölməsinin 2019-cu ildəki elmi və elmi-təşkilati fəaliyyətlərinə dair hesabatlarının dinləniləcəyini diqqətə çatdırıb.

AMEA-dan AZƏRTAC-a bildirilib ki, sonra Kimya Elmləri Bölməsinin sədri, AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev bölmənin hesabat məruzəsi ilə çıxış edib. Akademik hesabat ilində bölməyə daxil olan elmi müəssisələrin fəaliyyətində dövlət proqramları, AMEA rəhbərinin sərəncamları və Rəyasət Heyətinin qərarlarının əsas götürüldüyünü bildirib.

Bölmə üzrə statistik məlumatları diqqətə çatdıran akademik D.Tağıyev ötən il elmi müəssisələrdə 12 probleme aid 43 mövzu üzrə tədqiqat işinin aparıldığını və 11 mövzunun tamamlandığını deyib. Vurğulayıb ki, bölmənin elmi müəssisələri və respublikanın ali təhsil müəssisələri elmi fundamental tədqiqatlar sahəsində 21 mühüm elmi nəticə əldə ediblər. Məruzəçi bildirib ki, institutlarda 20 patent alınıb. O, hesabat ilində elmi müəssisələr tərəfindən təklif edilən üç tətbiqi xarakterli işin müxtəlif təşkilatlarda sınaqdan keçirildiyini və müsbət nəticələr əldə olunduğunu da əlavə edib.

Rəyasət Heyəti bir sıra təklif və mülahizələri nəzərə alaraq bölmənin 2019-cu ildəki elmi və elmi-təşkilati fəaliyyətinə dair hesabatı təsdiq edib. Kimya Elmləri Bölməsi və bölmədənkənar elm və təhsil müəssisələri üzrə 2019-cu ildə alınmış mühüm elmi və tətbiqi nəticələrin təsdiqi və AMEA-nın illik hesabatına salınması qərara alınıb. Elmi tədqiqatların "Azərbaycan Milli Elmlər Akademiyasının 2020-2025-ci illər üçün inkişaf proqramı"nda öz əksini tapan prioritet istiqamətlər üzrə aparılması, kimyəvi və texnoloji proseslərin tədqiqində riyazi modelləşmə və informasiya texnologiyalarından istifadə edilməsi, bölmənin institutlarında elmtutumlu texnologiyaların işlənilməsinə diqqətin artırılması və AMEA-nın Yüksək Texnologiyalar Parkı ilə əlaqələrin gücləndirilməsinə dair bölməyə tapşırıqlar verilib.

Qərarda elm və təhsilin inteqrasiyası, beynəlxalq təşkilatların qrant müsabiqələrinə təqdim edilən layihələrin rəqabət qabiliyyətinin yüksəldilməsi, "Web of Science" bazasına daxil olan yüksək impakt faktorlu jurnallarda çap olunan məqalələrin sayının artırılması, elmin populyarlaşdırılmasına dair tapşırıqlar da yer alıb. Bölmənin elmi müəssisələrinə müxtəlif istiqamətli tədqiqatların davam etdirilməsi tapşırılıb.

Gündəlikdə yer alan növbəti məsələ Gəncə Bölməsinin hesabatı barədə olub. Bölmənin sədri, akademik Fuad Əliyev hesabat ilində bölmənin elmi müəssisələrində aparılan tədqiqatların Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Rəyasət Heyətinin qərarlarının əsasında həyata keçirildiyini bildirib. Vurğulayıb ki, hesabat ilində Gəncə Bölməsinin elmi müəssisələri öz fəaliyyətlərində "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri", "Azərbaycan-2020: gələcəyə baxış İnkişaf Konsepsiyası", "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya", "Azərbaycan Elminin İnkişaf Doktrinası", AMEA-nın ümumi yığıncağının müddəalarını və dövlət proqramlarını əsas götürüb.

İclasda elm və təhsilin inteqrasiyasından danışan akademik F.Əliyev deyib ki, Gəncə Dövlət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Texnologiya Universitetinin Gəncə Bölməsində yaradılmış sahə kafedraları fəaliyyətini davam etdirib, gənc elmi kadrların hazırlanması məqsədilə elmi əsər, məqalə və monoqrafiyaların nəşri, müştərək elmi-tədqiqat işlərinin, akademik və informasiya mübadilələrinin aparılması istiqamətində birgə işlər görülüb.

Məruzə dinlənildikdən sonra müzakirə aparılıb, təklif və mülahizələr səsləndirilib. Rəyasət Heyətinin qərarı ilə AMEA-nın Gəncə Bölməsinin 2019-cu ildəki elmi və elmi-təşkilati fəaliyyətinə dair hesabatı qəbul olunub.

Tədbirdə akademik F.Əliyevin 70 illik yubileyi ilə bağlı qərar qəbul edilib.

# Təhsil Nazirliyində beynəlxalq olimpiadalarda uğur qazanmış məktəblilərlə görüş



Təhsil Nazirliyində beynəlxalq olimpiadalarda ölkəmizi uğurla təmsil etmiş məktəblilərlə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Təhsil naziri Ceyhun Bayramov müasir dünyada təhsilin mühüm rolunu qeyd edib, ölkəmizdə bu sahəyə xüsusi əhəmiyyət verildiyini deyib.

Təhsilimizin inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən, beynəlxalq olimpiadalarda qazanılmış uğurlardan danışan nazir yüksəksəviyyəli, rəqabətli proqramların sayının artdığını diqqətə çatdırıb. C.Bayramov, eyni zamanda, təhsil müəssisələrində, xüsusilə universitetlərdəki əhəmiyyətli yeniliklərdən bəhs edib, Qazaxıstanın Almatı şəhərində keçirilən 16-cı Beynəlxalq Jautikov Olimpiadasında və Qətərdə keçirilən Yeniyetmələrin Elm Olimpiadasında medallara layiq görülmüş məktəblilərimizi təbrik edib, onlara tövsiyələrini verib.

Görüşdə olimpiadalarda uğur əldə etmiş şagirdlərə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, Qazaxıstanın Almatı şəhərində keçirilən 16-cı Beynəlxalq Jautikov Olimpiadasında informatika fənni üzrə Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdləri Abutalıb Namazov qızıl, Murad Eynizadə gümüş və Gəncə şəhəri 15 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Əziz Hüseynov bürünc medal qazanıblar.

Riyaziyyat fənni üzrə Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdləri Murad Ağazadə və Abbas Məmmədov gümüş, həmin liseyin 9-cu sinif şagirdi Toğrul Abbasov və Şuşa rayon Malbəyli kənd 1 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Vüqar Quliyev bürünc medal qazanıblar.

Fizika fənni üzrə Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Məhəmməd Yusifov isə bürünc medala layiq görülüb.

Beləliklə, Azərbaycan məktəbliləri bu olimpiadada 1 qızıl, 3 gümüş və 4 bürünc medal olmaqla ümumilikdə 8 medal əldə ediblər.

Qətərdə keçirilən Yeniyetmələrin Elm Olimpiadasında isə məktəblilərimiz 4-ü gümüş, 2-si bürünc olmaqla 6 medal qazanıblar.

# BSU-da payız semestrinin imtahan sessiyası ilə bağlı mediatur keçirilib

Bakı Slavyan Universitetində 2019-2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyası ilə bağlı mediatur keçirilib. Mediaturda təhsil eksperti, Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, BSU-nun İctimai Etimad Şurasının sədri, Əməkdar elm xadimi, professor Şahlar Əsgərov, təhsil eksperti Kamran Əsədov və bir sıra media əməkdaşları iştirak ediblər.





Mediatur iştirakçılarını əvvəlcə BSU-nun rektoru, professor Nurlana Əliyeva qəbul edib. Rektor bildirib ki, "Təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir!" deyən Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev insan kapitalının inkişafına, potensialının ön plana çıxarılmasına böyük diqqət və qayğı göstərir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva da elm və təhsilin inkişafına misilsiz töhfələr verir. BSU-nun kollektivi bu diqqət və qayğıdan ruhlanaraq daha əzmlə, məsuliyyətlə fəaliyyət göstərir.

Rektor daha sonra media nümayəndələrinə BSU-da həyata keçirilən mədəni-kütləvi tədbirlər, respublika və beynəlxalq miqyaslı elmi konfranslar, tədris və imtahan prosesinin səmərəli təşkili, təhsilin keyfiyyətinin yaxşılaşdırılması, maddi-texniki bazanın gücləndirilməsi, insan resurslarının inkişaf etidirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, ikili diplomların tətbiqi ilə bağlı xarici universitetlərlə aparılan iş, eləcə də imtahan sessiyasına hazırlıq barədə geniş məlumat verib. Bildirilib ki, təhsil naziri Ceyhun Bayramov "İmtahan sessiyasının təşkili və keçirilməsi barədə" 6 dekabr 2019-cu il tarixli əmr imzalayıb. Həmin sənədə əsasən, BSU-da da müvafiq əmr verilib. Həmin əmrdə 2019-2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının tədris planlarına uyğun 7 yanvar-1 fevral 2020-ci il tarixlərində keçirilməsi, imtahan sessiyasının mövcud normativ sənədlər əsasında təşkilinin müvafiq strukturlar tərəfindən təmin edilməsi öz əksini tapıb. Bunlardan savayı, həmin əmrdə imtahanlara nəzarət, tələbələrin müraciətlərinə yerindəcə çevik şəkildə baxılması da unudulmayıb. Bu məqsədlə universitet rəhbərliyinin, valideyn şuralarının, tələbə ictimai təşkilatlarının, mətbuat xidmətinin və ictimaiyyətin nümayəndələrinin də daxil edildiyi 15 nəfərdən ibarət İmtahan Qərargahı yaradılıb.

İmtahanlarda şəffaflığı tam təmin etmək üçün fakültələrdə Apelyasiya komissiyalarının qərarlarından narazı qalan tələbələrin işlərinə yenidən baxılması məqsədi ilə universitetdə 12 nəfərlik Apelyasiya Komissiyası da təşkil olunub.

Verilən məlumatlardan aydın oldu ki, imtahan sessiyasının yüksək səviyyədə başa çatması üçün həyata keçirilən tədbirlər yalnız bunlardan ibarət deyil. Məsələn, universitetin hər iki tədris korpusunda (7 və 4 nəfərdən ibarət) yaradılmış İşçi Qrupunun vəzifəsi məhz imtahan sessiyasında tələbələrin cavab kartlarının kodlaşdırılması, sənədlərinin düzgün və səliqəli şəkildə tərtib edlməsində onlara yardım göstərməkdir. Həmçinin ehtiyac yarandığı təqdirdə Apelyasiya Komissiyasının işinə müxtəlif ixtisasları təmsil edən mütəxəssislərin cəlb edilməsi də nəzərdə tutulan məsələlərdəndir.

Rektor imtahan sessiyası ərəfəsində hər bir tədris ilinin tələbələri ilə ayrı-ayrılıqda görüş keçirdiyini, onlara öz tövsiyələrini verdiyini, biliyin yeganə meyar olmasının izah edildiyini bildirib, məsləhət saatlarının keçirildiyini qeyd edib. Rektor vurğulayıb ki, bütövlükdə payız semestrinin imtahan sessiyası uğurla davam edir.

Tədris işləri üzrə prorektor, professor Telman Cəfərov media təmsilçilərinin imtahan prosesi ilə bağlı suallarını cavablandırdı.

Sonra mediatur iştirakçıları İmtahan Qərargahının və Apelyasiya Komissiyasının fəaliyyəti ilə tanış olublar. Media nümayəndələrinə İmtahan Qərargahının və Apelyasiya Komissiyasının iş prinsipləri, tətbiq olunan yeniliklər, müraciətlərin qəbul edilməsi, cavablandırılması qaydaları və s. barədə ətraflı məlumat verilib. Tələbələrin müraciətlərinə onların özlərinin və arzuladıqları təqdirdə valideynlərinin iştirakı ilə baxıldığı, buraxılmış səhvlərin bir-bir izah edildiyi, bir sözlə, ədalətə, obyektivliyə tam zəmanət verildiyi vurğulanıb. İmtahanlarla bağlı müraciətlərə əvvəlcə fakültələrdə fəaliyyət göstərən Apelyasiya komissiyalarında, burada həllini tapmadığı təqdirdə isə universitetin Apelyasiya Komissiyasında baxıldığı qeyd edilib.

İmtahan sessiyasının şəffaf və obyektiv, qanun çərçivəsində keçirilməsi üçün fakültə dekanları, kafedra müdirləri və digər müvafiq struktur bölmə rəhbərləri qarşısında konkret vəzifələr qoyulub. İmtahanların keçirildiyi auditoriyalar tam hazır vəziyyətə gətirilib. Auditoriyalarda səliqə-sahman təmin edilib, müşahidə kameraları quraşdırılıb. Auditoriyalardakı "ağıllı lövhələr"də imtahanlarla bağlı məlumatlar öz əksini tapıb. İmtahan prosesinə nəzarət edən nəzarətçi-müəllimlər, İmtahan Qərargahının və Apelyasiya Komissiyasının üzvləri onlara tapşırılmış vəzifələrin öhdəsindən layiqincə gəlirlər. Tələbələrin İmtahan Qərargahına və Apelyasiya Komissiyasına etdikləri müraciətlər çevik, ədalətli və hərtərəfli araşdırılır. Tələbələrin müraciətlərinin araşdırılmasına yoxlayıcı müəllimlərlə yanaşı, fənni tədris edənlər də cəlb edilir ki, bu da qiymətləndirilmənin obyektivliyində vacib məsələdir.

Mediatur iştirakçıları imtahanlar keçirilən auditoriyalarda olub, bir daha deyilənlərin şahidinə çevriliblər: BSU-da imtahan prosesi şəffaf və obyektiv keçirilir. İmtahanlar vaxtında başlayır, tələbələrə bilik səviyyələrini nümayiş etdirmək üçün hər cür şərait yaradılıb. Yazılı imtahanların nəticələri növbəti gün, şifahi imtahanların nəticələri isə elə oradaca elan edilir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ




## Azərbaycan ticarətin asanlaşdırılması və sənədsiz ticarətin aparılması üzrə regionun lideri olub

Azərbaycan BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyası (UNESCAP) rəqəmsal və davamlı ticarətin asanlaşdırılması ilə bağlı qlobal tədqiqatında ilk pillədə yer alıb. Hesabatda göstərilir ki, Azərbaycan bütün göstəricilərə görə dünyada ən öndə gedən ölkələr arasında, Cənubi və Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya regionlarında isə liderdir.




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaydığı məlumatda bildirilir ki, tədqiqat Ümumdünya Ticarət Təşkilatının (ÜTT) Ticarətin Asanlaşdırılması Sazişi (TFA) çərçivəsində 7 sahəni (ticarətin asanlaşdırılması üçün ümumi tədbirlər; sənədsiz ticarət; sərhədsiz sənədsiz ticarət; tranzit asanlaşdırma; ticarət və KOB-ların fəaliyyətinin asanlaşdırılması; ticarətin asanlaşdırılması və kənd təsərrüfatı ticarəti; qadın və ticarətin asanlaşdırılması) əhatə edib.

Azərbaycan sorğuda 81,72 faizlik göstərici ilə Cənubi və Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya regionlarında Rusiya Federasiyası və Şimali Makedoniya Respublikası ilə birlikdə ilk pillədə yer alıb.

Müqayisə üçün bildirək ki, Azərbaycan 2015-ci ildə 48,49, 2017-ci ildə isə 75,25 faizlik nəticə göstərib. 4 illik dövr ərzində Azərbaycan bu sıralamada öz göstəricilərini 33,23 faiz artıraraq dünyada top 20 ölkə sırasında yer alıb.

Azərbaycan sərhədsiz sənədsiz ticarət üzrə 50; kağızsız ticarət üzrə 85,19; institusional tənzimləmə və əməkdaşlıq üzrə 88,89; formallıq üzrə 91,67; şəffaflıq üzrə 93,33 faizlik göstərici əldə edib.

Ermənistanın isə 2019-cu ildə sərhədsiz sənədsiz ticarət üzrə 50, kağızsız ticarət üzrə 70,37, institusional tənzimləmə və əməkdaşlıq üzrə 22,22, formallıq üzrə 62,50, şəffaflıq üzrə 86,67 faiz olmaqla ümumilikdə bu tədqiqatda balı 62,37 faiz olub.

Birləşmiş Millətlər Təşkilatının 5 Regional Komissiyası və getdikcə artan qlobal və regional tərəfdaşlar tərəfindən birgə aparılan sorğu faktlara əsaslanıb və məlumatların toplanması, təsdiqi üçaddımlı yanaşma ilə tətbiq edilib: mütəxəssislərdən açıq məlumatın toplanması, BMT-nin Regional Komissiyası Katiblikləri tərəfindən məlumatların yoxlanılması və milli hökumətlər tərəfindən məlumatların təsdiqlənməsi.

Xatırladaq ki, tədqiqat 2015-ci ildən bəri hər iki ildən bir aparılır. Sorğular barədə məlumatlar və nəticələr www.untfsurvey.org səhifəsində yer alıb.

Azərbaycanın bu reytinqdə lider mövqeyə yüksəlməsi Prezident İlham Əliyevin apardığı uğurlu iqtisadi siyasət nəticəsində mümkün olub. Xüsusilə ölkədə rəqəmsallaşmanın və nağdsız dövriyyənin genişləndirilməsi, ticarətin liberallaşdırılması, "Yaşıl dəhliz", Azexport.az, Azərbaycan Rəqəmsal Ticarət Qovşağı və s. sahəsində aparılan uğurlu islahatlar məntiqi nəticəsini verib.

Qeyd edək ki, Azərbaycan BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasına (UNESCAP) 31 iyul 1992-ci ildə üzv olub. Azərbaycanın UNESCAP-ın əksər üzv ölkələri ilə yüksək səviyyəli münasibətlərə malik olduğunu nəzərə alaraq, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları, ticarət və enerji, investisiya və innovasiya, ətraf mühit, sosial inkişaf, statistika, fəlakətlərin azaldılması və s. kimi sahələrdə regionda maraqların irəliləməsi üçün UNESCAP vacib platformadır.

*"Azərbaycan"*



## TANAP-ın Avropa sərhədinə çatması ötən ilin mühüm hadisələrindən olmuşdur

*Əvvəli 1-ci səh.*

TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) haqqında daha geniş bəhs edilib. Bu da təsadüfi deyil. Çünki TANAP-ın Avropa ilə birləşən hissəsi keçən il hazır olub. Bu münasibətlə noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində təntənəli mərasim keçirilib. Beləliklə, TANAP tam istismara daxil olub. Bu kəmər "Cənub qaz dəhlizi"nin "onurğa sütunu"nu təşkil edir.

TANAP sözügedən dəhlizi yaradan üç mühüm kəmərin ikincisi və ən böyüyüdür. O, Türkiyənin şərq hüdudlarında "Şahdəniz" qazını Azərbaycanın və Gürcüstanın ərazisi ilə daşıyan CQBK-ya (Cənubi Qafqaz Boru Kəməri) bağlanır. Xəttin digər ucu Yunanıstan-Türkiyə sərhədinə çatır və burada yerləşən Kipoi məntəqəsində TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) birləşir. Bu səbəbdən də TANAP-ı "Cənub qaz dəhlizi"nin birləşdirici halqası da adlandırırlar.

TANAP möhkəm bünövrə üzərində həyata keçirilən layihədir. Odur ki, ötən ilin yekunlarına həsr olunmuş müşavirədə ondan əvvəlki layihələr də xatırlanıb.

2018-ci ilin iyun ayında istifadəyə verilən TANAP artıq il yarımdan çoxdur ki, Azərbaycan qazını Türkiyəyə daşıyır. Məlum olduğu kimi, "Cənub qaz dəhlizi"nin əsas ehtiyat mənbəyi "Şahdəniz" yatağıdır. "Şahdəniz-2"dən ildə 16 milyard kubmetr qaz nəql olunacaq ki, bunun da 6 milyard kubmetrini TANAP vasitəsilə Türkiyə alacaq. Qalan 10 milyard kubmetr qazı isə TAP kəməri TANAP-dan qəbul edərək Avropaya çatdıracaq.

Keçən ilin sonunadək TANAP vasitəsilə Türkiyəyə 4 milyard kubmetrədək qaz nəql olunub. Qarşıdakı illərdə kəmərin nəqletmə qabiliyyətinin əvvəlcə 24 milyard kubmetrə, daha sonra isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Bu baxımdan da TANAP təkcə Azərbaycan və Türkiyə, eləcə də region üçün deyil, bütün Avrasiya məkanı üçün önəm daşıyır.

TANAP kəmərinin çəkilməsi və istismara verilməsi "Şahdəniz-2"nin işlənməsi üçün mühüm amil rolunu oynayıb. Çünki qaz elə bir yanacaqdır ki, hasil edilməzdən əvvəl onun necə nəql olunacağı müəyyənləşdirilməlidir. Sözügedən müşavirədə Prezident İlham Əliyev TANAP-ı bu baxımdan da yüksək dəyərləndirmişdir: "Keçən il TANAP qaz kəməri istismara verildi. Hesab edirəm ki, bu, tarixi nailiyyətdir. Çünki TANAP "Cənub qaz dəhlizi"nin əsas hissəsidir. Məhz 2012-ci ildə TANAP üzrə imzalanmış sazişdən sonra "Şahdəniz-2" qaz-kondensat yatağının işlənilməsi üçün sanksiya verilmişdir. Əgər TANAP imzalanmasaydı, "Şahdəniz-2"nin işlənilməsi başlanmayacaqdı və bu gün biz bu əlavə qaz həcmini əldə edə bilməyəcəkdik. Bu, böyük problemlər yarada bilərdi. Ona görə həm TANAP üzrə sazişin imzalanması, həm də bu qaz kəmərinin vaxtından əvvəl istismara verilməsi və nəzərdə tutulmuş vəsaitə çox böyük qənaət edilməsi doğrudan da böyük tarixi nailiyyətimizdir".

Xatırladaq ki, "Cənub qaz dəhlizi"nin dörd seqmentindən üçü - "Şahdəniz-2", CQBK-nın genişləndirilməsi və TANAP layihələri müvəffəqiyyətlə fəaliyyət göstərməkdədir. Sonuncu hissə olan TAP-ın çəkilişi də artıq başa çatır. Keçən ilin yekunlarına həsr olunmuş müşavirədə bu layihənin icra səviyyəsinin 90 faizi ötdüyü qeyd edilib. Dövlət başçısı TAP-ın nəzərdə tutulmuş vaxtda, yəni bu il istismara veriləcəyinə əmin olduğunu bildirib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

*Dövlət Statstika Komitəsi ötən ilin 11 ayı üzrə Azərbaycanın xarici ticarət əlaqələri haqqında məlumatı açıqlayıb. Bildirilir ki, 2019-cu ilin yanvar-noyabr aylarında Azərbaycan dünyanın 190 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 117 ölkəyə məhsul ixrac, 181 ölkədən idxal olunmuşdur.*




## Qeyri-neft məhsullarının ixracı 16,3 faiz artıb

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla hesabat dövründə ölkənin xarici ticarət dövriyyəsi 30 milyard 40,5 milyonı, o cümlədən ixracın dəyəri 17 milyard 655,8 milyon, idxalın dəyəri 12 milyard 384,7 milyon dollar təşkil etmiş və nəticədə 5 milyard 271,1 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

2018-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 3,2 faiz artmış, real ifadədə isə 2,2, o cümlədən idxal 5,6, ixrac 0,3 faiz azalmışdır. 11 ayda ölkədən 1 milyard 781,1 milyon dollar dəyərində qeyri neft-qaz məhsulları ixrac edilmişdir ki, bu da 2018-ci ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 16,3, real ifadədə 10,3 faiz çoxdur.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 29,6 faizini İtaliyaya, 13,9 faizini Türkiyəyə, 6,6 faizini İsrailə, 5,2 faizini Hindistana, 5,1 faizini Almaniyaya, 4,1 faizini Çinə, 3,8 faizini İspaniyaya, 3,6 faizini Rusiyaya, 3,1 faizini Çexiyaya, hər biri 2,9 faiz olmaqla Fransa və Gürcüstana, 2,6 faizini Birləşmiş Krallığa, 2,0 faizini Xorvatiyaya, 1,9 faizini Portuqaliyaya, 1,8 faizini Ukraynaya, 10,9 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (34,9 faiz), Türkiyəyə (20,4 faiz), İsveçrəyə (9,2 faiz), Gürcüstana (8,5 faiz), Ukraynaya (2,6 faiz), İtaliyaya (2,2 faiz), Çinə (2 faiz), Yunanıstana (1,9 faiz), İrana (1,3 faiz), Niderlanda (1,3 faiz), Qazaxıstana (1,3 faiz) göndərilmiş malların payı üstün olmuşdur.

Azərbaycana idxal olunmuş məhsulların ümumi dəyərinin 16,7 faizi Rusiya, 12 faizi Türkiyə, 9,8 faizi İsveçrə, 9,6 faizi Çin, 5,8 faizi ABŞ, 5,1 faizi Almaniya, 3,5 faizi Ukrayna, 3,4 faizi İran, 3,2 faizi Kanada, 2,7 faizi İtaliya, 2,4 faizi Avstraliya, 1,8 faizi Fransa, 1,7 faizi Birləşmiş Krallıq, hər biri 1,6 faiz olmaqla Qazaxıstan və Yaponiya, 19,1 faizi isə digər ölkələr ilə aparılmış əməliyyatların payına düşmüşdür.

Ötən ilin 11 ayı ərzində 2018-ci ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 9,9, şəkər - 49,4, meyvə və tərəvəz şirələri - 31,1, çay - 6,5, meyvə və tərəvəz konservləri - 5, marqarin, qida üçün yararlı digər qarışıqlar - 26,9, emal olunmamış alüminium - 31,5, polietilen - 10,9, pambıq ipliyi - 34,8, bentonit gili - 16 faiz, tütün və pambıq lifinin hər biri - 1,6 dəfə artmış, təzə tərəvəz ixracı 7, kartof - 7,2, bitki yağları - 23,3, təbii üzüm şərabları və üzüm suslosu - 20,4, qara metallardan yarımfabrikatlar - 29,4, qara metallardan borular - 81,9 faiz azalmışdır.

2018-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 2019-cu ilin eyni dövründə buğda idxalı 49,9, xam şəkər və şəkər - 46,2, təzə meyvə - 1,1, bitki yağları - 14,5, kərə yağı, digər süd yağları və pastaları - 16,7, çay - 7,5, kartof - 31,2, quş əti və onun əlavə məhsulları - 7,8, mal əti - 6,5, təzə tərəvəz - 25,7, polad prokatı - 26,8, mineral gübrələr - 20,2, hesablama maşınları, blok və qurğuları - 43,3, rezin şinlər - 15,9, mebellər - 4,5, polietilen - 19,2, məişət kondisionerləri - 54, paltaryuyan maşınlar - 7,2, qara metallardan künclüklər - 11,5 faiz, minik avtomobilləri 1,8, yük avtomobilləri 1,7 dəfə artmış, siqaret idxalı 57,6, qara metallardan borular - 13,3, qara metallardan çubuqlar - 18, sement və sement klinkerləri - 16,4, məişət soyuducuları - 12,9 faiz azalmışdır.

## Həyata keçirilən islahatlar daha çox sosial sahəni əhatə edir

### Prezident İlham Əliyevin dəfələrlə səsləndirdiyi "Bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır" bəyanatı keçən il də öz təsdiqini tapdı

*Əvvəli 1-ci səh.*

Vurğulandı ki, pensiya sahəsində həyata keçirilən islahatlar sayəsində ötən il ölkədə orta pensiya və yaşa görə pensiyanın məbləği hər biri üzrə 15, ən həssas kateqoriya olan əlilliyə görə pensiya isə 22 faiz artıb, sosial müavinətlər və təqaüdlərlə bağlı islahatlar paketi geniş kütləni əhatə edib. Bu proqramların tətbiqi sayəsində 1,3 milyon insanın sosial rifahı yaxşılaşıb.

Keçən il ünvanlı sosial yardım da geniş şəkildə artırılıb. Ümumilikdə bu proqramın icrası 296 min üzvü olan 72 min ailəni əhatə edib. Hər bir ailəyə ödənilən məbləğ isə 209 manata çatdırılıb.

Dövlət Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid və əlil olan vətəndaşların sosial problemlərinin həllini də daim diqqət mərkəzində saxlayır. Ötən il Prezidentin təşəbbüsü ilə hər bir şəhid ailəsinə 11 min manat birdəfəlik ödəniş verilmiş, bununla yanaşı, şəhid ailələrinə və müharibə əlillərinə 934 mənzil təqdim edilmişdir. Eyni zamanda əlil şəxslər avtomobil təyinatı proqramı çərçivəsində 600 avtomobillə təmin olunmuşlar.

Müşavirədə dövlət başçısı bildirdi ki, bu istiqamətdə cari ildə də mühüm layihələr icra ediləcək. Belə ki, ötən il bu kateqoriyadan olan şəxslərə 934 mənzil verilmişdisə, cari ildə 1500 mənzilin verilməsi proqnozlaşdırılır. Beləliklə, növbədə 2000 ailə qalacaq ki, onlar da tezliklə mənzillə təmin olunacaqlar.

Həyata keçirilən uğurlu sosial siyasətin bir təzahürü də işləyənlərin minimum əməkhaqqının artırılmasıdır. 2019-cu ildə minimum əməkhaqqının iki dəfə artırılması dövlət sektorunda çalışan, müxtəlif kateqoriyalarda işləyən insanların maaşlarının ciddi şəkildə - 20-100 faiz civarında artmasına səbəb olmuşdur. Bunun sayəsində Azərbaycan minimum əməkhaqqına görə MDB məkanında alıcılıq qabiliyyəti üzrə ikinci yerdə qərarlaşmışdır. Ötən il əhalinin gəlirləri də kifayət qədər çox - 42 faiz artmışdır.

Müşavirədə dövlət başçısı bunu da xüsusi vurğuladı ki, insanların əmək müqaviləsi ilə işləməsinin şəffaflaşdırılması və bu sahəyə nəzarətin gücləndirilməsi son dərəcə vacib məsələdir. Təsadüfi deyil ki, Prezident bu barədə aidiyyəti qurumlara lazımi tədbirlərin görülməsi barədə dəfələrlə tapşırıqlar vermişdir. Prezident İlham Əliyev müşavirədə bu barədə demişdir: "Bu, qeyri-formal məşğulluqla bağlı mübarizə nəticəsində baş verdi. Yəni bu əmək müqavilələri sadəcə olaraq rəsmiləşdirildi. Bu, birincisi onu göstərir ki, biz düzgün yoldayıq və aparılan siyasət nəticə verir, amma eyni zamanda hələ ki kölgə iqtisadiyyatında minlərlə, on minlərlə insan işləyir. Ona görə kölgə iqtisadiyyatından çıxmaqla bağlı bütün qurumlar fəal işləməlidir və burada çox ciddi koordinasiya aparılmalıdır. Mən Nazirlər Kabinetinə tapşırıq verirəm ki, bu məsələ ilə bağlı ayrıca müşavirə keçirsin və aidiyyəti qurumlar öz təkliflərini versinlər. Qurumlar arasında da çox ciddi koordinasiya işləri aparılmalıdır. 153 min əmək müqaviləsinin rəsmiləşdirilməsi çox böyük hadisədir. Əlbəttə ki, həm şəffaflığa xidmət göstərir, eyni zamanda pensiya təminatı üçün də bunun çox böyük əhəmiyyəti var".

Əhalinin sosial müdafiəsinin təminatının ən təsirli vasitələrindən biri də məşğulluqdur. Bu baxımdan özünüməşğulluq proqramı çərçivəsində vətəndaşların işlə təminatına xüsusi diqqətin verilməsi təsadüfi deyil. Təkcə keçən il bu proqramdan 10,3 mindən çox vətəndaş yararlanmışdır. Onlar müvafiq təlimləri başa vuraraq şəxsi bizneslərini qurmuşlar.

Müşavirədə sözügedən məsələ ilə bağlı bir fakt da səsləndi ki, aparılan danışıqlar nəticəsində BMT-nin İnkişaf Proqramının və Heydər Əliyev Fondunun bu proqrama qoşulması əlavə 500 nəfərin aktivliyini təmin edəcək. Dünya Bankı ilə aparılan danışıqlar da başa çatmaq üzrədir. Kredit sazişi üzrə danışıqlar yekunlaşdıqdan sonra onun iyun ayına qədər imzalanması gözlənilir.

Prezidentin sərəncamı ilə yaradılan DOST Agentliyinin fəaliyyətə başlaması da məşğulluğun təmin edilməsinə öz töhfəsini verir. Belə ki, DOST iş mərkəzləri tərəfindən 38 min yeni iş yeri yaradılmış, 45 mindən çox ölkə vətəndaşının müvəqqəti məşğulluğu təmin edilmişdir. Bundan əlavə, dövlət müəssisələri tərəfindən 28 min iş yeri yaradılmışdır. Həmin proqramın cari ildə də davam etdirilməsi və daha çox iş yerlərinin yaradılması istiqamətində müvafiq tədbirlər görülür.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Minimum əməkhaqqının artımına görə dünya ikincisiyik



Azərbaycan ötən il minimum əməkhaqqı göstəricisinin tətbiq edildiyi dünya ölkələri arasında bu göstəricinin artımına görə ikinci yeri tutub. Bu barədə picodi.com portalına istinadən virtualaz.org xəbər yayıb.

Bildirilir ki, BMT-nin Əmək Təşkilatının 131 saylı konvensiyasına əsasən, minimum əmək haqqının tətbiq edilməsi işçilərə onların minimal tələbatını ödəməyə belə imkan verməyən aşağı maaşların verilməsinin qarşısını almaq məqsədi daşıyır. Hazırda Avropa ölkələrinin bir neçə faizi əməkhaqlarının təyin edilməsində qanunvericilik əsasında minimum əməkhaqqı göstəricisini əsas tutur. Afrika ölkələrinin isə təxminən yarısında bu qayda tətbiq olunur.

Saytın araşdırması Azərbaycan da daxil olmaqla 54 ölkəni əhatə edib. Həmin ölkələr minimum əməkhaqqı göstəricisini qanunvericilik əsasında tətbiq edirlər. Beləliklə, məlum olub ki, 2019-cu ildə minimum əməkhaqqının artımına görə, Nigeriya dünya lideri olub. Bu ölkədə minimum əməkhaqqı 64,8 faiz artıb. Lakin bu cür kəskin artıma baxmayaraq, Nigeriyada minimum əməkhaqqı cəmi 74 dollara çatıb.

Azərbaycan minimum əməkhaqqının artımına görə ikinci yerdədir - 37,7 faiz. Bu artımdan sonra ölkəmizdə minimum əməkhaqqı 140 dollar olub. Səudiyyə Ərəbistanında isə minimum əməkhaqqı 33 faizdən çox artaraq 1067 dollar təşkil edib. Ermənistan minimum əmək haqqının artımına görə, siyahıda beşinci yerdədir. İşğalçı ölkədə artım 25,2 faiz olub və həmin artımdan sonra minimum əməkhaqqı 111 dollara çatıb.

Siyahıda 6-cı yerdə Meksikadır. Burada minimum əməkhaqqı 20 faiz artandan sonra 191 dollar olub. Növbəti pillədə isə 18 faiz artımla Çilidir. Həmin ölkədə minimum əməkhaqqı hazırda 318 dollardır. Nəhayət, 8-ci yerdə 16,7 faiz artımla Pakistan gəlir və bu ölkədə minimum əməkhaqqı 113 dollardır. MDB ölkələrindən Qazaxıstan isə minimum əməkhaqqının artımına görə sonuncudur - cəmi 1,1 faiz. Hazırda Qazaxıstanda minimum əməkhaqqı 98 dollar təşkil edir.

# Milli Qəhrəmanla görüş

Azərbaycanın Milli Qəhrəmanı Fariz Qəhrəmanov məzunu olduğu Bərdə rayonundakı Xəsili kənd tam orta məktəbin şagird və müəllim kollektivi ilə vaxtaşırı görüşlər keçirir. Belə görüşlərdən biri yeni ilin ilk günlərinə təsadüf etmişdir.



Görüşdə Bərdə Rayon Təhsil Şöbəsinin, Xəsili kənd inzibati ərazi vahidinin, Xəsili kənd bələdiyyəsinin üzvləri, Qarabağ müharibəsi veteranları, məktəbin şagird və müəllim kollektivi iştirak edirdi. Məktəbin direktoru Təhminə Qafarova ənənəyə çevrilmiş belə görüşlərin şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinə təsirindən gənc və yeniyetmələrdə hərbçi peşəsinə marağın artmasından danışdı.

Fariz Qəhrəmanov keçdiyi şərəfli döyüş yollarından söz açdı. Dedi ki, bu məktəbi bitirib on səkkiz yaşı tamam olanda ordu sıralarına yollanıb. Ağdam, Ağdərə, Füzuli, Kəlbəcər və Tərtər rayonları uğrunda döyüşlərdə iştirak edib. Ağdərə ətrafında döyüşlərdə ağır yaralanıb. Hərbi hospitalda müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıdıb. 1995-ci ilin mart hadisələri zamanı göstərdiyi şücaətə görə Prezidentin 4 aprel 1995-ci il tarixli fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Hazırda Müdafiə Nazirliyində vəzifədə çalışır.

Maraqlı söhbəti ilə görüş iştirakçılarında xoş ovqat yaradan qəhrəman zabit şagirdlərin çoxsaylı suallarını da cavablandırdı.

Şagirdlər görüş iştirakçılarına ədəbi-bədii kompozisiya təqdim etdilər. Sonda Azərbaycanda Milli Ordu quruculuğundan bəhs edən videoçarx nümayiş etdirildi.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## İranın raket zərbəsindən İraqda 11 amerikalı hərbçi xəsarət alıb



Yanvarın 8-də İranın İraq ərazisindəki Eyn əl-Əsəd bazasına endirdiyi raket zərbəsi zamanı 11 amerikalı hərbi qulluqçu kontuziya almışdır. Bu barədə "Defense One" portalı xəbər verir.

Pentaqondakı mənbələrin məlumatına görə, zərərçəkənlər müayinə üçün bu həftə Almaniyadakı hərbi hospitala aparılmışdır.

ABŞ-ın başçılığı ilə bir qrup ölkənin İraq və Suriyada keçirdiyi "Sarsılmaz qətiyyət" əməliyyatının qərargahı bu məlumatı ümumən təsdiqləmişdir. Əməliyyat qərargahının rəsmi nümayəndəsi, polkovnik Mayls Keggins bildirmişdir ki, əvvəllər elan olunduğu kimi, yanvarın 8-də İranın Eyn əl-Əsəd bazasına hücumu zamanı ABŞ-ın heç bir hərbi qulluqçusu həlak olmamışdır. Lakin bir neçə hərbçiyə partlayış nəticəsində kontuziya simptomları ilə əlaqədar yardım edilmişdir. Onların müayinəsi davam edir.

Bundan əvvəl ABŞ Prezidenti Donald Tramp bildirmişdi ki, hücum nəticəsində "heç bir amerikalı zərər çəkməmişdir". O həmçinin belə bir fərziyyə irəli sürmüşdü ki, Tehran bazaya zərbə endirərkən ABŞ-a çox ziyan vurmamağa çalışırmış.

## Fransada pensiya islahatına qarşı etiraz aksiyalarına 187 min nəfər qatılıb

Fransada pensiya islahatına qarşı nümayişlərdə 187 min nəfərə yaxın adam iştirak etmişdir. Bu barədə Daxili İşlər Nazirliyi məlumat vermişdir.



Parisdə 23 min nümayişçi küçələrə çıxmışdır. "Occurrence" müstəqil monitorinq mərkəzinin məlumatına görə, paytaxtdakı aksiyalarda iştirak daha kütləvi olmuşdur. Mərkəzin əməkdaşları şəhərin küçələrinə 28 min adamın çıxdığını bildirmişlər. Hazırkı etiraz aksiyasının əsas təşkilatçılarından biri - "Ümumxalq Əmək Konfederasiyası" həmkarlar ittifaqı əvvəlki nümayişlər zamanı olduğu kimi, bu dəfə də Daxili İşlər Nazirliyinin və müstəqil mərkəzin hesablamalarını xeyli üstələyən rəqəmlər açıqlamışdır. O bəyan etmişdir ki, Parisdə etirazçıların sayı 250 min nəfər olmuşdur.

Etiraz aksiyaları digər şəhərlərdə, o cümlədən Amyen, Marsel və Tuluzada da keçirilmişdir. Fransada pensiya islahatına etiraz əlaməti olaraq keçirilən tətillər silsiləsi həmkarlar ittifaqlarının təşəbbüsü ilə ötən ayın 5-də başlamışdır. Nümayişçilərin böyük əksəriyyəti nəqliyyat sahəsində çalışanlardır. Aksiyalarda həmçinin məktəb və universitet müəllimləri, vəkillər, bələdiyyə xidmətlərinin əməkdaşları fəal iştirak edirlər.

Həmkarlar ittifaqları hökumətin pensiya yaşını 64 ilə qaldırmaq təklifindən başqa, vətəndaşların onlarca kateqoriyası üçün xüsusi pensiya tariflərini ləğv etmək niyyətindən narazıdır. Yanvarın 11-də Baş Nazir Eduar Filipp həmkarlar ittifaqlarına ünvanladığı məktubda bildirmişdir ki, hökumət pensiya yaşının artırılması bəndini islahat layihəsindən müvəqqəti olaraq çıxarmağa hazırdır.

## Honq Konqda 7 mindən çox nümayişçi saxlanılıb



Son səkkiz ay ərzində Honq Konqda qanunsuz etiraz aksiyalarının saxlanılmış iştirakçılarının sayı 7019 nəfərə çatmışdır. Bu barədə polisin məlumatına istinadən "South China Morning Post" qəzeti xəbər verir.

Saxlanılanların 40 faizi tələbələrdir. Təxminən 1100 nəfər məhkəmələrin qərarı ilə məsuliyyətə cəlb olunmuşdur. Onların 547-si kütləvi iğtişaşlar barədə maddə üzrə ittiham edilmişdir.

Xatırladaq ki, Honq Konqda kütləvi etiraz aksiyaları ötən ilin iyununda başlamışdır. Nümayişçilər yerli hakimiyyət orqanlarının qanun pozucularını Çinə təhvil verməyə imkan yaradacaq ekstradisiya haqqında qanun layihəsinə qarşı çıxmışlar. Layihə geri çağırılsa da, etiraz aksiyaları səngiməmişdir.

## Latviyada 1500 dəmiryolçu işsiz qalacaq



"Latviya dəmir yolu" dövlət şirkəti cari ilin sonunadək ağır iqtisadi vəziyyətlə əlaqədar təxminən 8 minlik personaldan 1500 əməkdaşı işdən çıxarmaq niyyətindədir. Bu barədə yerli KİV xəbər verir.

Dövlət şirkəti məlumatında qeyd etmişdir ki, 2019-cu il ölkənin bütün tranzit və nəqliyyat sahəsinə problemlər gətirmişdir. Məsələn, dünyada yanacağın qiymətinin aşağı düşməsi, habelə regionda yaranmış iqtisadi və siyasi vəziyyət yükdaşımaların həcminin xeyli azalmasına gətirib çıxarmışdır.

"Latviya dəmir yolu" ziyanı azaltmaq və biznesin effektivliyini artırmaq məqsədi ilə optimallaşdırma keçirməyi planlaşdırır. Şirkət təxminən 1500 əməkdaşın ixtisara salınmasını maliyyə tarazlığına qayıtmaq üçün zəruri hesab edir.

## Ötən il Çində ÜDM-in artım tempi 6,1 faizə düşüb



2019-cu ildə Çində ÜDM-in artım tempi 6,1 faiz təşkil etmişdir. Bu barədə Dövlət Statistika Komitəsi məlumat vermişdir.

Komitə qeyd etmişdir ki, ilkin məlumata əsasən 2019-cu ildə Çinin ümumi daxili məhsulu (ÜDM) 99086 trilyon yuan (14,4 trilyon dollar) təşkil etmişdir. Bu, ötən ildəkindən 6,1 faiz çoxdur və gözlənilən 6-6,5 faizlik proqnoza uyğundur. Məsələn, ÜDM-in illik artımı birinci rübdə 6,4 faiz, ikincidə 6,2 faiz, üçüncü və dördüncü rübdə 6 faiz təşkil etmişdir.

2018-ci ildə Çin iqtisadiyyatının artım tempi 1990-cı ildən bəri minumuma enmişdir - 6,6 faiz. Buna baxmayaraq, Çin dünyanın ikinci ən böyük iqtisadiyyatı statusunu qoruyub saxlamışdır.

# Yanvarın 20-də paytaxtın bəzi küçə və prospektlərində nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq

20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar həmin gün paytaxtın bəzi küçə və prospektlərində nəqliyyatın hərəkətinə məhdudiyyət qoyulmaqla istiqamətin dəyişdirilməsi nəzərdə tutulub.

Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov AZƏRTAC-a bildirib ki, yanvarın 20-də səhər saat 08:00-dan mərasim qurtaranadək Parlament prospekti ilə kəsişən, birləşən küçələrdə avtomobillərin hərəkəti tam məhdudlaşdırılacaq. Hərəkətin məhdudlaşdırılması 20 Yanvar faciəsi qurbanlarının xatirəsini yad edənlərin rahat, fasiləsiz və təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə həyata keçirilir. Bununla əlaqədar Mikayıl Müşfiq küçəsi və Hüseyn Cavid prospektinin, Mikayıl Müşfiq dairəsi ilə Mətbuat prospektinin kəsişmələrindən, Mehdi Hüseyn küçəsi, Teleteatr binasının qarşısından, İzzət Nəbiyev, Abbasqulu Abbaszadə küçələrinin kəsişməsindən, yəni, Milli Məclisin inzibati binasının arxa hissəsindən Parlament prospekti - Şəhidlər xiyabanı istiqamətinə bütün nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılaraq istiqamət dəyişdiriləcək.

Bu istiqamətdə şəxsi avtomobillərdən mümkün qədər az istifadə edilməsi, ictimai nəqliyyata üstünlük verilməsi tövsiyə olunur.

## Atəşkəs rejimi 22 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Acarlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Bu teatr ki var...

## Teatr mədəni elitanın göstəricisidir







Teatrı həyatın özünə bənzədirlər. O, tale toplumunun cəmiyyət göstəricisi kimi hər bir tamaşaçını düşündürür və faciədən komediya aləminə qədər həyat afişasını açır.

Sumqayıt Dövlət Dram Teatrı 70 yaşlı bir ömrün əllidən artıq ilini özündə cilalayır, mədəniyyət göstəricisi kimi mənəvi missiyanı yerinə yetirir.

Sumqayıt sənaye şəhəri statusunu daşıyır. Tikinti meydanında zavodlarla birlikdə mədəniyyət ocaqlarının yaradılması da nəzərdə tutulmuşdu. Onların içində mədəniyyət saraylarından biri də Sumqayıt Dövlət Dram Teatrının (həmin dövrdə o, H.Ərəblinskinin adını daşıyırdı) binasıdır.

Yarım əsrlik bir zaman kəsiyində şəhər sola və sağa genişlənsə də, yenə də həmin bina ərazi əhəmiyyətini itirməyib.

Teatrın səhnəsində ilk dəfə tamaşaya qoyulan "Müsyö Jordan və dərviş Məstəli şah" həmin dövrdə təkcə bir il ərzində 150 dəfədən çox oynanılmışdı. Eyni zamanda rusdilli əhalinin maraq dairəsini təmin etmək üçün də tamaşalar hazırlanardı.

Bu gün şəhərdəki yeniliklərdən biri də teatr binasına göstərilən qayğıdır. Üstündən xeyli zaman keçməsinə baxmayaraq bu binanın baxımsızlıq ucbatından görkəmi korlanırdı. Yəni Sumqayıt Dövlət Dram Teatrının binası istifadəyə verildiyi yarım əsrdən artıq zaman kəsiyində bir dəfə də olsun əsaslı təmir edilməmişdi. İstilik sistemi köhnəlmiş binada normal qaydada tamaşaların məşqini belə aparmaq mümkün deyildi.

Ölkə rəhbərinin tapşırığı ilə bu binada təmir işlərinə start verildi. Əsaslı təmir və yenidənqurma tədbirləri zamanı binanın bütün mühəndis-texniki qurğuları tamamilə yenidən quruldu. Binanın 500 yerlik tamaşa və 100 yerlik akt salonu ən müasir avadanlıqla təchiz olundu. Burada tamaşaları bədii və texniki cəhətdən yüksək səviyyədə təqdim etmək üçün 360 dərəcə hərəkət edən səhnə, müasir akustika, işıqlandırma sistemləri və digər avadanlıqlar quraşdırıldı.

Teatrın interyerinin daha cəlbedici görünməsi üçün milli memarlıq ənənələrindən geniş istifadə edilib. Binanın bütün xidməti, dekorasiya və qrim otaqları müasir üslubda tərtib olunub, mebellər tətbiqi sənətin qədim növü olan oyma üsulu ilə işlənib. Teatrın köhnə parket döşəməsi sökülərək monolit dəmir-beton plitələrlə əvəzlənib, binadakı sütunlar isə mərmərlə üzlənib. Beləliklə, teatr binası tam şəkildə təmir edilərək sumqayıtlıların öhdəsinə verilib.

Son bir neçə ildə teatrın repertuarı da genişlənib. Dünya ədəbiyyatı nümunələrindən, yerli yazarların əsərlərindən hazırlanan maraqlı tamaşalar qapıları bağlı qalmış teatrı bu gün tamaşaçı nəfəsi ilə isidir. Bəzən həftə ərzində hər gün tamaşaçılarını sevindirən kollektiv maraqlı əsərləri canlandırmaqla tamaşaçı rəğbətini qazanır. A.Şaiqin "Qaraca qız", M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah", Con Qolsuorsinin "Birincilər və sonuncular", Hüseynbala Mirələmovun "Vicdanın hökmü", C.Cabbarlının "Solğun çiçəklər", ərəb xalq nağılı "Əlibaba və qırx quldur", C.Patrikin "Qarını öldürməliyik" və digərləri böyüklü-kiçikli sumqayıtlıların sevərək izlədikləri tamaşalardır. 70 yaşlı şəhərimizə həsr edilən Əli Əmirlinin "Sevgilim Sumqayıt" tamaşası bu bayrama bir töhfədir. Sumqayıtın zəhmətkeş insanları, qurub-yaradan gənclik və talelər bu tamaşada geniş yer alıb. Keçən ilin əvvəlindən başlayaraq kollektiv teatrın binasının qarşısında, parklarda, təhsil müəssisələrində, ictimaiyyətin sıx toplaşdığı məkanlarda tamaşalar göstərmişdir.

Kollektivin əməyini dövlətimiz layiqincə qiymətləndirib. Belə ki, Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə teatrın 1 əməkdaşına "Azərbaycan Respublikasının Xalq artisti", 14 əməkdaşına "Azərbaycan Respublikasının Əməkdar artisti", 3 nəfərə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adları verilmiş və 17 əməkdaş "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Teatr həm də mədəniyyət elitasıdır. Bu gün sumqayıtlılar bayram və istirahətlərini möhtəşəm Sumqayıt bulvarında, Nəsimi adına parkda keçirirlər. Aktyorun qazancı isə alqışlardır. Əminik ki, alqış sədaları hələ çox səslənəcək və teatr öz mədəniyyət missiyasını şərəflə daşıyacaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***


## "Bakı Metropoliteni" QSC
## Tədris Mərkəzi üçün model və maketlərin hazırlanması xidmətinin satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. Tədris Mərkəzi üçün model və maketlərin hazırlanması xidmətinin satın alınması**

**İştirak haqqı - 100 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **11 fevral 2020-ci il saat 14:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **19 fevral 2020-ci il saat 14:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **20 fevral 2020-ci il saat 14:30-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


# Yanvarın 18-də bəzi bölgələrdə hava yağıntılı olacaq, yollar buz bağlayacaq

Ölkə ərazisində yanvarın 18-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, duman olacağı gözlənilir. Lakin gecə və axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Gün ərzində güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 2-4°, gündüz 7-9° isti olacaq.

Naxçıvan Muxtar Respublikasında arabir qar yağacağı gözlənilir. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturu gecə 3-8°, dağlıq ərazilərdə 10-14° şaxta, gündüz 0-5° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə qar yağacağı gözlənilir. Havanın temperaturunun gecə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı ehtimal edilir. Yollar buz bağlayacaq.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-9° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi şərq rayonlarında havanın yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Havanın temperaturunun gecə 1-6° şaxta, gündüz 2-6° isti, dağlarda gecə 7-10°, gündüz 0-5° şaxta olacağı ehtimalı var. Yollar buz bağlayacaq.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 7-11° isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Havanın temperaturunun gecə 1-4°, gündüz 5-8° isti, dağlarda gecə 0-4° şaxta, gündüz 2-4° isti olacağı bildirilir. Dağlıq ərazilərdə yollar buz bağlayacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Ağalar Vəliyev Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, general-mayor Natiq Əliyevə anası

**ROZA NƏSİB QIZI ƏFƏNDİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Şəhər Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi Bəhman Qəribova atası

**FƏRHAD QƏRİBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyası İdarəetmə Sistemləri İnstitutunun kollektivi institutun "Ekoloji proseslərin modelləşdirilməsi" laboratoriyasının rəhbəri

**ROBERT ƏSƏDULLA OĞLU QARAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7181
Sifariş 92
Qiyməti 40 qəpik